AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

4 MAY 2019-cu il ŞƏNBƏ № 97 (6424) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil haqqı xərclərinin ödənilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsilə əlçatanlığını təmin etmək və onların təhsil almaq imkanlarını genişləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının ali təhsil müəssisələrində bakalavriat və magistratura (əsas (baza ali) tibb təhsili və rezidentura) təhsil səviyyələrində, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində və orta ixtisas təhsili müəssisələrində ödənişli əsaslarla təhsil alan I və II dərəcə əlilliyi olan şəxslərin, habelə sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqların təhsil müddəti ərzində təhsil haqqı xərcləri 2019/2020-ci tədris ilindən etibarən dövlət büdcəsinin vəsaiti hesabına ödənilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 may 2019-cu il.**

## Prezident İlham Əliyev Braziliya Milli Konqresi Deputatlar Palatası sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 3-də Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev ölkələrimiz arasında siyasi əlaqələrin yüksək səviyyədə olduğunu vurğuladı. Dövlətimizin başçısı yüksək səviyyəli səfərlərin əməkdaşlığın müxtəlif sahələri ilə bağlı fikir mübadiləsinin aparılması üçün yaxşı imkan yaratdığını bildirdi və parlamentlərarası əlaqələrin ikitərəfli münasibətlərin inkişafına töhfə verdiyini dedi. Prezident İlham Əliyev Braziliya nümayəndə heyətinin böyük tərkibdə Azərbaycana səfərindən məmnunluğunu bildirərək iqtisadi, sərmayə qoyuluşu, turizm, mədəniyyət, kənd təsərrüfatı, aviasiya və digər sahələrdə əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini qeyd etdi.

Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Maya qəbula görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Rodriqo Maya, öz növbəsində, qeyd etdi ki, yüksək səviyyəli qarşılıqlı səfərlər əməkdaşlığımızın inkişafında mühüm rol oynayır və parlamentlərarası əlaqələr xalqlarımızın bir-birini daha yaxşı tanımasına xidmət edir. Qonaq ölkələrimiz arasında əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi, ticarət dövriyyəsinin artırılması üçün böyük potensialın olduğunu dedi.

Söhbət zamanı BMT və digər beynəlxalq təşkilatlar çərçivəsində həyata keçirilən əməkdaşlığın önəmi qeyd olundu.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 17 mart tarixli 239 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları"nda, 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi və "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 846-VQD nömrəli Qanununun tətbiqi haqqında" 2017-ci il 5 dekabr tarixli 1707 nömrəli Fərmanının ləğv edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının 2018-ci il 29 iyun tarixli 1199-VQ nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 17 mart tarixli 239 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 3, maddə 190; 2014, N 5, maddə 477; 2016, N 8, maddə 1384) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət İnvestisiya Proqramının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

*1.1.* 3.15-ci və 4.3-cü bəndlərə "Nazirlər Kabinetinə" sözlərindən sonra "və Azərbaycan Respublikasının Hesablama Palatasına" sözləri əlavə edilsin;

*1.2.* 3.21-ci bəndin birinci cümləsində "və Maliyyə Nazirliyinə" sözləri ", Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Hesablama Palatasına" sözləri ilə əvəz edilsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 3 may tarixli 1361 nömrəli Fərmanı ilə təsdiq edilmiş (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 5, maddə 765, N 9, maddə 1650, N 10, maddə 1789, N 12 (I kitab), maddələr 2314, 2321; 2018, N 1, maddə 54, N 2, maddələr 200, 219, N 3, maddələr 416, 430, 448, N 5, maddələr 916, 919, N 6, maddə 1243, N 9, maddələr 1828, 1840, N 11, maddələr 2274, 2289, N 12 (I kitab), maddələr 2540, 2587; 2019, N 1, maddə 82, N 2, maddə 213; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 10 aprel tarixli 620 nömrəli Fərmanı) "Rayon (şəhər) məhkəmələrinin baxdığı inzibati xətalar haqqında işlər üzrə protokol tərtib etmək səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nın 64-cü hissəsi ləğv edilsin.

**3.** "Hesablama Palatası haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2017-ci il 31 oktyabr tarixli 846-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 5 dekabr tarixli 1707 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, N 12 (I kitab), maddə 2275) ləğv edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 may 2019-cu il.**

## Azərbaycan Respublikası Prezidentinin "İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında" 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli, "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" 2000-ci il 23 dekabr tarixli 432 nömrəli, "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" 2010-cu il 24 may tarixli 272 nömrəli, "Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" 2010-cu il 22 iyun tarixli 284 nömrəli, "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 2012-ci il 6 iyun tarixli 648 nömrəli və "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 sentyabr tarixli 278 nömrəli Fərmanının 4.1-ci bəndinin icrasını təmin etmək məqsədi ilə **qərara alıram:**

**1.** "İcarəyə verilmiş dövlət əmlakından səmərəli istifadə olunması tədbirləri haqqında" Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 6 sentyabr tarixli 629 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, N 3, maddə 236; 1999, N 8, maddə 493; 2001, N 10, maddə 640; 2002, N 12, maddə 726; 2006, N 7, maddə 590; 2010, N 7, maddə 610; 2014, N 11, maddə 1417; 2015, N 9, maddə 1000; 2018, N 6, maddə 1199) 1-ci hissəsinin ikinci cümləsində "Azərbaycan Respublikasının Qanununa uyğun olaraq," sözləri "Azərbaycan Respublikası Qanununun 19-cu maddəsində müəyyən edilən məqsədlər üçün" sözləri ilə əvəz edilsin və həmin cümləyə "Nazirliyinin" sözündən sonra ", tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin, "İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının ərazilərində isə "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin" sözləri əlavə edilsin.

**2.** "Dövlət əmlakının özəlləşdirilməsi haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 23 dekabr tarixli 432 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, N 12, maddə 844; 2001, N 7, maddə 470, N 10, maddə 640; 2002, N 12, maddə 725; 2003, N 9, maddə 475, N 10, maddələr 569, 585; 2004, N 9, maddə 678; 2005, N 5, maddə 400; 2006, N 7, maddə 590; 2007, N 5, maddə 452, N 6, maddə 599, N 11, maddə 1097; 2008, N 7, maddə 613; 2009, N 3, maddə 163, N 12, maddə 990; 2010, N 6, maddə 498, N 7, maddə 610; 2013, N 10, maddə 1146; 2014, N 5, maddə 477; 2015, N 9, maddə 999; 2016, N 8, maddə 1384; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 mart tarixli 572 nömrəli Fərmanı) aşağıdakı dəyişikliklər edilsin:

*2.1.* həmin Fərmanla təsdiq edilmiş "Yerli icra hakimiyyəti orqanlarının sərəncamında olan, habelə yaşayış binalarında yerləşib dövlət vəsaiti hesabına inşa edilmiş qeyri-yaşayış sahələrinin özəlləşdirilməsi Qaydaları"nın 4.2-ci bəndinin onuncu abzasının ikinci cümləsinə "Nazirliyi" sözündən sonra ", tabeliyindəki dövlət qoruqlarının ərazilərində olduqda, Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi" sözləri əlavə edilsin;

*2.2.* həmin Fərmanla təsdiq edilmiş "İcarəyə verilmiş dövlət əmlakının özəlləşdirilməsi haqqında Əsasnamə"nin 4-cü hissəsinin birinci cümləsinə "Nazirliyinin" sözündən sonra ", tabeliyindəki dövlət qoruqlarının ərazilərində olduqda, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin" sözləri əlavə edilsin.

**3.** "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 24 may tarixli 272 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 5, maddə 401; 2012, N 12, maddə 1086; 2013, N 5, maddə 499; 2015, N 9, maddə 998; 2018, N 11, maddə 2243; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 7 mart tarixli 577 nömrəli Fərmanı) 1.2-ci, 1.5-ci və 1.6-cı bəndlərinə ismin müvafiq hallarında "Nazirliyi" sözündən sonra ismin müvafiq hallarında ", tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi" sözləri əlavə edilsin.

**4.** "Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları"nın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2010-cu il 22 iyun tarixli 284 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, N 6, maddə 499; 2014, N 11, maddə 1423; 2015, N 9, maddə 1007; 2016, N 2 (II kitab), maddə 235) ilə təsdiq edilmiş "Daşınmaz dövlət əmlakı obyektlərinin müsabiqə əsasında icarəyə verilməsi Qaydaları"nın 1.4-cü bəndinin beşinci abzasına "Nazirliyi" sözündən sonra ", tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi" sözləri əlavə edilsin.

**5.** "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 6, maddə 542; 2013, N 1, maddə 29, N 2, maddə 117, N 3, maddə 246, N 8, maddə 909, N 10, maddə 1155, N 12, maddə 1514; 2014, N 5, maddələr 477, 487, N 9, maddə 1027, N 12, maddə 1577; 2015, N 3, maddə 271, N 9, maddə 1005, N 11, maddə 1322, N 12, maddə 1448; 2016, N 2 (II kitab), maddə 273, N 5, maddələr 859, 864, N 8, maddə 1384, N 9, maddə 1464, N 10, maddə 1647, N 11, maddə 1835; 2017, N 11, maddə 1835, N 3, maddə 353, N 4, maddə 545, N 5, maddə 807, N 8, maddə 1521, N 10, maddə 1797; 2018, N 2, maddələr 191, 215, N 3, maddə 427, N 4, maddə 659, N 7 (I kitab), maddə 1462, N 10, maddə 2017, N 12 (I kitab), maddə 2538; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 1 mart tarixli 565 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

*5.1.* 3.11.5-1-ci yarımbəndə "İçərişəhər" sözündən əvvəl (birinci halda) ", tabeliyindəki dövlət qoruqlarının ərazilərində aparılan tikinti işləri ilə bağlı Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinə" sözləri əlavə edilsin;

*5.2.* 3.12.7-ci yarımbəndə "Nazirliyi" sözündən sonra ", tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi" sözləri əlavə edilsin.

*5.3.* 4.11.16-cı yarımbəndə "uyğun olaraq," sözlərindən sonra "müvafiq ərazidə ("İçərişəhər" Dövlət Tarix-Memarlıq və "Qala" Dövlət Tarix-Etnoqrafiya qoruqlarının, Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin tabeliyindəki dövlət qoruqlarının əraziləri istisna olmaqla) tarix və mədəniyyət abidələrinin təsdiqlənmiş siyahıdan çıxarılması barədə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə birgə təklif vermək," sözləri əlavə edilsin.

**6.** "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, N 9, maddə 847; 2010, N 10, maddə 1196; 2015, N 3, maddə 270, N 5, maddə 531, N 9, maddə 1006; 2016, N 6, maddə 1059, N 11, maddə 1824; 2017, N 1, maddə 40, N 5, maddə 825, N 11, maddə 2012; 2018, N 3, maddə 417, N 5, maddə 910, N 8, maddə 1676, N 11, maddə 2289; 2019, N 12 (I kitab), maddə 2615; Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 19 mart tarixli 594 nömrəli Fərmanı) 4.6-cı, 4.8-ci, 4.10-cu və 4.13-cü bəndlərinə, 4.7-1.2-ci yarımbəndinə, 4.12-ci bəndinə (birinci halda) ismin müvafiq hallarında "Nazirlik" sözündən sonra ismin müvafiq hallarında ", tabeliyindəki dövlət qoruqlarının ərazilərində Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi" sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

**Bakı şəhəri, 3 may 2019-cu il.**

# Ulu öndər Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilən elmi-nəzəri konfrans keçirilib




**Xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ilk milli Konstitusiyamızın müəllifi Heydər Əliyevin anadan olmasının 96-cı ildönümü münasibətilə mayın 3-də "Pullman" otelində Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Hüquq və İnsan Haqları İnstitutunun, Qara dəniz və Xəzər dənizi Regionu Ölkələrinin Hüquqşünaslar Assosiasiyasının birgə təşkilatçılığı ilə "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda elmi-nəzəri konfrans keçirilib.**

**Bu barədə AZƏRTAC-a Konstitusiya Məhkəməsinin mətbuat xidmətindən məlumat verilib.**



Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev tədbirdə açılış nitqi ilə çıxış edərək ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətindən, Azərbaycanın inkişafı və milli dövlətçiliyin gücləndirilməsi istiqamətində misilsiz tarixi xidmətlərindən, böyük xilaskarlıq missiyasından danışıb. Fərhad Abdullayev qeyd edib ki, hüquqi dövlət quruculuğunu öz inkişafının başlıca istiqaməti kimi seçən Azərbaycanda ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qısa müddətdə irimiqyaslı məhkəmə-hüquq islahatları başlanılıb, sovet dövründən miras qalmış hüquq sistemi tamamilə yeni, demokratik prinsiplər əsasında qurulub, institusional səviyyədə bir sıra yeni təsisatlar yaradılıb, beynəlxalq birliyə sürətli inteqrasiya sahəsində əhəmiyyətli nailiyyətlər əldə edilib.

Ulu Öndərin zəngin dövlətçilik təcrübəsinin, siyasi irsinin əhəmiyyətindən bəhs edən F.Abdullayev vurğulayıb ki, 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş bu Konstitusiya ölkəmizdə dövlətçiliyin inkişafına, demokratik, hüquqi dövlət, vətəndaş cəmiyyətinin yaradılmasına və hüquq sisteminin müasir tələblərə uyğun formalaşmasına geniş imkanlar açıb. Ölkəmizdə yaradılması məhz Ulu Öndərin adı ilə bağlı olan Konstitusiya Məhkəməsi fəaliyyətə başladığı gündən üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməyə və fəaliyyətini təkmilləşdirməklə məsuliyyətli işini həyata keçirməyə daim çalışır.

Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə reallaşdırılan siyasət nəticəsində bütün sahələrdə sürətlə inkişaf edən Azərbaycan beynəlxalq miqyasda özünə layiqli yer tutur, dünyanın inkişaf etmiş ölkələri sırasında qərarlaşıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları qanunçuluğun və hüquq qaydasının daha da möhkəmləndirilməsinə, Azərbaycanın dünya birliyinə daha fəal inteqrasiyasına və demokratik imicinin yüksəldilməsinə xidmət edir. Həmçinin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il aprelin 3-də imzaladığı Fərmanın ədalət mühakiməsinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyması üçün mühüm addım olduğu və ədalət mühakiməsi prosesində keyfiyyətcə yeni və cəmiyyət üçün çox vacib yanaşmaların tətbiqinə əhəmiyyətli təkan verəcəyi xüsusilə vurğulanıb.

Konfransda AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun direktoru Aytən Mustafazadə çıxış edərək Ulu Öndərin mənalı ömür yolundan, fəaliyyətindən danışıb. O, xalqımızın milli-mənəvi dəyərlərinin qarantı olan, bütün dövrlərdə onların qorunmasına çalışan görkəmli dövlət xadimi, ümummilli lider Heydər Əliyevin mədəniyyətimizin, elmimizin və təhsilimizin hərtərəfli inkişafı üçün gördüyü işlərin konkret nəticələr verdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, Ulu Öndərin ən böyük amalı və məqsədi dövlətimizin müstəqilliyinin əbədi olması, insan hüquqlarının qorunmasını rəhbər tutan vətəndaş cəmiyyətinin qurulması idi.

Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Elmira Süleymanova bildirib ki, Heydər Əliyev cəmiyyətin və dövlətin inkişafının məhz demokratiya və insan hüquqlarına ehtiram göstərilməsi ilə bağlı olduğuna diqqəti yönəldərək, insan hüquqlarının müasir dünyada cəmiyyəti birləşdirən əsas meyar olduğunu vurğulayırdı. Əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərə üstünlük verən Heydər Əliyevin rəhbərliyi ilə insan hüquq və azadlıqlarının təmin olunması məqsədilə bir sıra hüquqi islahatların həyata keçirilməsinə başlanılıb. İnsan hüquqlarının müdafiəsi sahəsində məhz onun tərəfindən bünövrəsi qoyulmuş köklü islahatlar və mütərəqqi tədbirlər nəticəsində respublikamızda qısa müddətdə böyük nailiyyətlər qazanılıb.

Konstitusiya Məhkəməsinin, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun, Qara dəniz və Xəzər dənizi Regionu Ölkələrinin Hüquqşünaslar Assosiasiyasının, Ombudsman Aparatının, Milli Məclisin, Ədliyyə Nazirliyinin, Baş Prokurorluğun, Bakı Dövlət Universitetinin, digər qurum və təşkilatların nümayəndələri, nüfuzlu alimlər, ictimai xadimlər çıxışlarında bildiriblər ki, XX əsrin sonu - XXI əsrin əvvəllərində Azərbaycana rəhbərlik etmiş dahi şəxsiyyət Heydər Əliyevin adı xalqımızın tarixinə böyük xilaskar kimi həkk olunub. Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə uzaqgörənliklə atılan addımlar, Azərbaycanda əsası qoyulan güclü sosial, mədəni, iqtisadi və intellektual sərmayələr gələcəkdə Azərbaycan xalqının istiqlaliyyət qazanması üçün zəmin yaradıb.

Konfransa yekun vuran Fərhad Abdullayev və ombudsman Elmira Süleymanova xüsusilə qeyd ediblər ki, bu gün Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində bütün sahələrdə inkişaf edən Azərbaycanın daxili və xarici siyasəti, respublikamızı dünyada nüfuzlu dövlətlər sırasına daxil edən quruculuq işləri ulu öndər Heydər Əliyevin siyasi irsinin davamıdır. Son illər ölkəmizin çoxsaylı beynəlxalq siyasi, mədəni, idman tədbirlərinə böyük uğurla ev sahibliyi etməsi isə Azərbaycana beynəlxalq səviyyədə göstərilən etimadın əyani təzahürü olduğu vurğulanıb, xalqımızın rifahına yönəlmiş genişmiqyaslı tədbirlərin daim davam etdiriləcəyi diqqətə çatdırılıb.

**AZƏRTAC**

## Nazirlər Kabinetinin Aparatının iclası keçirilib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sədrliyi ilə Nazirlər Kabinetinin 2019-cu ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qaldırılan məsələlərlə əlaqədar Nazirlər Kabineti Aparatının iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Nazir Novruz Məmmədov 2019-cu ilin birinci rübündə ölkəmizin əldə etdiyi uğurlu nəticələrdən, aparılan iqtisadi islahatlardan, yeniliklərdən bəhs edib və Nazirlər Kabinetinin iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qeyd etdiyi istiqamət və hədəflərin hökumət üçün əsas meyar olduğunu bildirib. Baş Nazir ilin birinci rübündə aparılan ciddi sosial əhəmiyyətli islahatların, verilən qərarların Azərbaycan ictimaiyyəti tərəfindən çox yüksək qiymətləndirildiyini, ölkəmizin həm regional, həm də dünya miqyasında reytinqinin daha da yüksəlməsinə səbəb olduğunu vurğulayıb. Xüsusən də, dövlətimizin başçısının əhalinin aztəminatlı təbəqəsinin, şəhid ailələrinin, Qarabağ müharibəsi əlillərinin, məcburi köçkünlərin sosial problemlərini daim diqqətdə saxlaması Nazirlər Kabineti üçün də prioritet məsələlərdən biridir. Bununla yanaşı, vergi və gömrük sahələrində institusional dəyişikliklər, şəffaflıq və sağlamlaşdırma tədbirləri də müsbət dəyişikliklərlə nəticələnib. Ölkədə bütün iqtisadi göstəricilər üzrə davamlı inkişaf müşahidə olunur, icra edilən böyük investisiya və infrastruktur layihələri iqtisadiyyata öz töhfəsini verir. İlin birinci rübündə Sumqayıt Kimya Sənaye Parkının ərazisində inşa olunmuş "SOCAR karbamid" zavodunun istifadəyə verilməsi, "Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı"nın, "Azərbaycan Respublikasında qida təhlükəsizliyinin təmin edilməsinə dair 2019-2025-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi, o cümlədən ölkədə aqrar sahənin şaxələndirilməsi və dayanıqlı inkişafı istiqamətində atılan addımlar dövlətimizin başçısının apardığı məqsədyönlü siyasətin əməli nəticələridir.

İclasda sosial-iqtisadi inkişafın nəticələrinə dair ətraflı fikir mübadiləsi aparıldı. Baş Nazir Novruz Məmmədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin icrası ilə əlaqədar Nazirlər Kabineti tərəfindən həyata keçirilməsi nəzərdə tutulan tədbirlərlə bağlı Aparatın aidiyyəti şöbələrinə müvafiq göstərişlər verdi.

**AZƏRTAC**

## İstanbulda Çamlıca məscid kompleksinin rəsmi açılış mərasimi keçirilib

**Mayın 3-də İstanbulda 2013-cü il martın 19-da inşasına başlanılan Çamlıca məscid kompleksinin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə rəsmi açılış mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, eyni vaxtda 65 min dindarın ibadət edə biləcəyi, Türkiyənin ən böyük məscidi olan Çamlıcanın cümə namazından sonra rəsmi açılışı olub.

Yerli və xarici dövlət xadimlərinin qatıldığı açılış mərasimində Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədov iştirak edib.

İstanbulun yeni rəmzi olan kompleksdə məscidlə yanaşı, 11 min kvadratmetrlik muzey, 3 min 500 kvadratmetrlik sənət qalereyası, səkkiz sənət atelyesi, 3 min kvadratmetrlik kitabxana, min nəfərlik konfrans salonu da var.

Altıminarəli məscidin Malazgirt zəfəri şərəfinə ucaldılan dörd minarəsinin hündürlüyü 107,1 metr, digər ikisinin ki, isə 90 metrdir. Məscidə xüsusi hazırlanmış 17 min kvadratmetrlik xalı döşənib. Məscidin 5 metr eni, 6,5 metr hündürlüyü və 6 ton ağırlığı olan əsas qapısı türk taxta-əl işi sənətinin ən gözəl nümunələrindən biri hesab edilir.

**AZƏRTAC**

## Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının məsul işçilərinin 2019-cu ilin may ayında respublikanın bir sıra şəhər və rayonlarında vətəndaşların qəbulu cədvəli

**14 may 2019-cu il**
1. Qax rayonu
2. Salyan rayonu
3. Şabran rayonu
4. Tovuz rayonu
5. Xocalı rayonu

**22 may 2019-cu il**
1. Şirvan şəhəri
2. Daşkəsən rayonu
3. Füzuli rayonu
4. Xızı rayonu
5. Yardımlı rayonu

**Qeyd:** *qəbullar şəhər və rayonlarda saat 10:00-da başlayır.*

*Müdafiə naziri Zakir HƏSƏNOV:*

## Azərbaycan ilə NATO arasında 25 illik dayanıqlı tərəfdaşlıq mövcuddur



**NATO ilə tərəfdaşlığımızın 25-ci ildönümünün qeyd edilməsi bizim əməkdaşlıqda qazandığımız nailiyyətlərimizin təcəssümüdür. Bu uğur Azərbaycanın 25 il əvvəl çətin dövrdə qərar verdiyi istiqamətlər üzrə həyata keçirdiyi kompleks fəaliyyətlərin nəticəsidir.**

**Bunu Azərbaycan Respublikasının müdafiə naziri, general-polkovnik Zakir Həsənov deyib.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Z.Həsənov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 1994-cü il mayın 4-də "Sülh naminə tərəfdaşlıq" (SNT) çərçivə sənədini imzalaması ilə Azərbaycan SNT proqramına qoşulduğunu vurğulayıb. Qeyd edib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu proqram NATO ilə Azərbaycan Respublikasının Silahlı Qüvvələri arasında səmərəli hərbi əməkdaşlığın və uyarlılığın təmin olunmasında ən uğurlu mexanizmlərdən biri kimi özünü doğruldub.

NATO ilə qarşılıqlı maraqlar çərçivəsində tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsi Azərbaycan Ordusunun hərbi əməkdaşlığının prioritet istiqamətlərindən biridir. Azərbaycan ilə NATO arasında qurulmuş tərəfdaşlıq və müxtəlif sülhməramlı missiyalarda birgə fəaliyyət ölkəmizin Avratlantik məkanda təhlükəsizliyi və sabitliyi təmin etmək üçün göstərdiyi səylərin və xoşməramlı niyyətimizin bariz nümunəsidir.

Qeyd olunub ki, Azərbaycan üzləşdiyi çağırışlara baxmayaraq, ilk günlərdən etibarən Kosovoda və Əfqanıstanda NATO-nun başçılığı altında həyata keçirilən əməliyyatlara qatılaraq beynəlxalq sabitliyə nail olmaq üçün töhfəsini verib.

Əfqanıstan İslam Respublikasında həyata keçirilən "Qətiyyətli Dəstək" missiyasının bu ölkənin təhlükəsizliyi və davamlı inkişafı, o cümlədən regional və qlobal təhlükəsizlik üçün əhəmiyyətini bilərək biz 2018-ci ildən etibarən Əfqanıstandakı hərbi kontingentimizin sayını 30 faiz artırmışıq. Göstərilən hərbi dəstəyə əlavə olaraq Azərbaycanın Əfqanıstana töhfəsi siyasi, maddi-texniki dəstək, quru-hava tranziti, həmçinin müxtəlif treninqlər, minadan təmizləmə və maliyyə dəstəyi kimi digər qeyri-hərbi yardımları da ehtiva edir.

Zakir Həsənov deyib: "Çox yaxşı dərk edirik ki, qloballaşan dünyada hər bir böhran və ya münaqişə digər ölkələrə təsirsiz ötüşmür və bu kontekstdə Azərbaycan Avratlantik məkanda sülhə və təhlükəsizliyə nail olmaq üçün NATO ilə əməkdaşlıq edir və bundan sonra da edəcək.

Təsadüfi deyil ki, Azərbaycan "Planlaşdırma və analiz prosesi"nə qoşulan ilk ölkələrdən biridir. Praktiki əməkdaşlığın təməlini təşkil edən bu mexanizm müasir ordu quruculuğunun əsaslarına söykənən müdafiə islahatlarının həyata keçirilməsinə, zəruri əməliyyat uyarlılığının təmin edilməsinə və Silahlı Qüvvələrin transformasiyasına töhfə verir.

Xüsusilə qeyd etmək istərdim ki, Azərbaycan Ordusu əməliyyat uyarlılığına nail olmaq üçün NATO-nun "Əməliyyat imkanları konsepsiyası qiymətləndirmə və rəy" proqramından səmərəli istifadə edir. Azərbaycan Ordusu 2004-cü ildə proqrama bir bölüklə qoşulub. Bu gün isə bütün qoşun növlərindən olan bölmələr bu proqrama cəlb edilib. Hərbçilərimiz qazandıqları təcrübə ilə təkcə respublika daxilində deyil, həm də digər tərəfdaş ölkələrlə bölüşərək proqramın inkişafına töhfə verirlər.

Təbii ki, hərbi sahədə müvəffəqiyyətə nail olunması əməliyyat uyarlılığı səviyyəsi ilə düz mütənasibdir. Lakin dayanıqlı tərəfdaşlığın əldə edilməsi insan uyarlılığının və həmfikirliyin əldə olunması ilə bağlı olan danılmaz bir faktdır. Bu kontekstdə mən NATO-nun "Tərəfdaşlığın qərargah vəzifəsi" proqramını xüsusi ilə qeyd etmək istərdim".

General-polkovnik Z.Həsənov bildirib ki, 2002-ci ildən bu günədək Azərbaycan Ordusunun ümumilikdə 24 zabiti bu proqram çərçivəsində NATO-nun müxtəlif struktur və qərargahlarında xidmət edib. Hazırda da NATO qərargahlarında 8 zabitimiz xidmət edir. Bu müddət ərzində beynəlxalq mühitdə əldə olunmuş təcrübə zabitlərimizin ölkəyə qayıtdıqdan sonra milli vəzifələrdəki xidmətlərinə müsbət təsirini göstərir. Çoxmillətli strukturlarda əldə edilmiş bilik və bacarıqlar milli təcrübəyə inteqrasiya olunaraq Ordumuzun döyüş qabiliyyətinin daha da inkişaf etdirilməsinə töhfəsini verir.

Bizim NATO ilə substantiv əməkdaşlığımız Alyansın təhsil və təlim standartlarının peşəkar hərbi təhsil sistemimizə inteqrasiya edilməsini də əhatə edir. On ildən artıqdır ki, Azərbaycan NATO-nun "Müdafiə təhsilinin genişləndirilməsi" proqramı çərçivəsində yeni çağırışlara, mürəkkəb və dinamik strateji mühitdə bütün növ təhdidlərə cavab verə biləcək liderlərin hazırlanmasını həyata keçirir.

NATO-nun müxtəlif əməkdaşlıq proqramları müsbət dəyişikliklər istiqamətində təsirli vasitə kimi özünü göstərir. Düşünürük ki, Avratlantik məkanının ümumi sabitliyi və təhlükəsizliyi regional ölkələrin apardıqları daxili islahatlardan və beynəlxalq əməkdaşlıqdan asılıdır. Bizim yaxından iştirak etdiyimiz NATO-nun tərəfdaşlıq mexanizmləri və əməkdaşlıq proqramları Azərbaycanın, eləcə də bütün regionun müdafiə və təhlükəsizlik sahəsində islahatlar üçün çərçivənin müəyyənləşdirilməsində əhəmiyyətli rol oynayır və regional, o cümlədən Avratlantik məkanın təhlükəsizliyini möhkəmləndirir.

"Qeyd etmək lazımdır ki, üzvlərinin ərazi bütövlüyü, suverenliyi və siyasi müstəqilliyinin qorunması baxımından Alyansın tarixi müvəffəqiyyətləri, SNT ölkələri də daxil olmaqla müxtəlif tərəfdaş dövlətlərin NATO ilə əməkdaşlığının başlıca amillərindən biridir. Alyans təkcə bu prinsipləri dəstəkləməklə kifayətlənmir, həm də Avratlantik təhlükəsizliyin əsası kimi onları siyasi cəhətdən müdafiə edir. Bu kontekstdə Cənubi Qafqazdakı münaqişələrin həll edilməsi istiqamətində NATO-nun nümayiş etdirdiyi qəti mövqe təqdirəlayiqdir. Azərbaycan da ölkəmizin ərazi bütövlüyünü dəstəklədiyinə görə NATO-ya minnətdardır.

Avropa ilə Asiya arasında yerləşən Cənubi Qafqaz, xüsusilə Azərbaycan qlobal enerji bazarında mühüm rol oynayır. Cənubi Qafqaz Avropanın enerji təhlükəsizliyi baxımından olduqca əhəmiyyətli bir regiondur. Bölgədəki həll olunmamış münaqişələrin mövcudluğu Avropanın təkcə enerji təhlükəsizliyinə deyil, həmçinin sabitliyinə də böyük təhdid təşkil edir. Bu baxımdan münaqişələrin beynəlxalq hüququn norma və prinsipləri, o cümlədən BMT Nizamnaməsinin tələblərinə uyğun həll edilməsi beynəlxalq ictimaiyyətin marağındadır.

Ölkəmiz hər zaman sülh ideyalarına sadiqliyini nümayiş etdirir və müvafiq siyasəti həyata keçirməklə regional və qlobal miqyasda sabitliyin saxlanılmasını hər vəchlə dəstəkləyir. 25 illik çoxşaxəli əməkdaşlığımız, sülhməramlı əməliyyatlar çərçivəsində beynəlxalq sülhə verdiyimiz töhfə və Avratlantik məkanda sülhə nail olmaq istiqamətində həyata keçirdiyimiz uğurlu layihələr müvəffəqiyyətli tərəfdaşlığımızın təzahürüdür. İnanıram ki, bugünədək əməkdaşlıqda qazanılmış nailiyyətlər gələcək uğurlarımızın carçısıdır. Əminəm ki, biz bu strateji əhəmiyyətli tərəfdaşlığı inkişaf etdirməyə və gücləndirməyə davam edəcəyik", - deyə Azərbaycan Respublikasının müdafiə naziri bildirib.

**AZƏRTAC**

# Azərbaycanı böyük inkişaf yoluna çıxaran dahi şəxsiyyət

**Ulu öndər Heydər Əliyev çagdaş tariximizə müstəqil dövlətimizin xilaskarı kimi şanlı səhifə yazıb. Milli inkişaf modelinin banisi olan dahi şəxsiyyət dövlətçiliyimizin iqtisadi, siyasi, hüquqi və ideoloji əsaslarını elmi prinsiplər əsasında müəyyənləşdirib.**



"Hər bir insan üçün milli mənsubiyyəti onun qürur mənbəyidir. Həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" - deyən Heydər Əliyev azərbaycançılığı milli ideologiyaya çevirməklə, cəmiyyətin həmrəylik və bütövlüyünə, mənəvi birliyinə nail olmuşdur. Azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının vahid ideya ətrafında birləşməsini şərtləndirən tarixi-siyasi amillərin təsnifatını, xaricdə yaşayan soydaşlarımızın hüquq və azadlıqlarının qorunması sahəsində dövlətin qarşısında duran vəzifələri, onların Azərbaycana münasibətdə üzərinə düşən mənəvi öhdəlikləri, habelə azərbaycanlı anlayışının sosial-fəlsəfi məzmununu müəyyənləşdirən konsepsiyadır. Azərbaycançılıq millətindən asılı olmayaraq özünü azərbaycanlı sayan vətəndaşların həmrəyliyi üçün möhkəm istinad mənbəyi, ideoloji bünövrədir. Bu ideologiyanın pozitiv xarakteri həm də bütün dünyaya səpələnmiş 50 milyondan artıq azərbaycanlını vahid ideallar naminə səfərbər etmək qüdrəti ilə müəyyən olunur. Milli-mənəvi, islami-əxlaqi, dünyəvi-humanitar dəyərləri, Şərq və Qərb mədəniyyətlərinin dialoqunu, türkçülük və avropaçılıq meyillərini, tarixi təkamüldə varislik və tərəqqiçiliyi, ünsiyyət birliyini ahəngdar şəkildə ehtiva edən azərbaycançılıq ideologiyası məhz buna görə də müxtəlif coğrafi regionlarda, sosial-siyasi sistemlərdə, mədəni mühitlərdə formalaşmış diasporumuz üçün də cəlbedicidir.

1993-cü ilin iyununda müstəqil Azərbaycanın rəhbərliyinə qayıdan, məsuliyyətli bir missiyanı çiyinlərinə götürməkdən çəkinməyən ulu öndər Heydər Əliyev qısa zamanda dövlətçiliyin xilasına, ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının bərpasına, iqtisadi tənəzzülün qarşısının alınmasına nail olmaqla yanaşı, həm də milli-mənəvi, əxlaqi dəyərlərin deqredasiyası təhlükəsinin qarşısını almışdır. Bakıya qayıtdıqdan sonra ilk görüş yerlərindən biri kimi məhz Azərbaycan Elmlər Akademiyasını seçən ümummilli lider Azərbaycanın humanitar və ictimai elmlərinin yeni dövrün tələblərinə uyğunlaşdırılması, azərbaycançılıq ideologiyasının, milli-mənəvi dəyərlərin inkişafı ilə bağlı alimlər qarşısında yeni tələblər müəyyənləşdirmişdir.

Ulu öndər Heydər Əliyev həmin görüşdən sonra elm xadimlərinə davamlı qayğı göstərmiş, onların problemlərinin həlli, habelə AMEA-nın elmi-tədqiqat institutlarının maddi-texniki bazasının gücləndirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirmişdir. Ümummilli lider yeni ictimai-iqtisadi formasiyada elm xadimlərinin üzərinə düşən vəzifələri düzgün müəyyənləşdirmiş, bu istiqamətdə təxirəsalınmaz problemlərin həlli yönümündə qətiyyətli addımlar atmışdır. Ulu öndərin 1997-ci il yanvarın 31-də AMEA-da alimlərlə görüşü isə xüsusilə unudulmaz hadisəyə çevrilmişdir. Həmin görüşdə Heydər Əliyev Azərbaycan elminin inkişaf strategiyası ilə bağlı prioritet vəzifələrin nədən ibarət olduğunu böyük müdrikliklə açıqlamışdır. Heydər Əliyev həmin görüşdə ictimai və humanitar elm sahələrində yeni dövrün tələblərinə uyğun yeniləşmənin, eləcə də Sovetlər Birliyi dövründən qalmış, köhnəlmiş stereotiplərdən, səmərəsiz tədqiqat metodlarından uzaqlaşmağın vacibliyini xüsusi diqqətə çəkmişdir. Xüsusən də tarixçiləri Azərbaycanın keçmişi ilə bağlı həqiqətləri daha obyektiv araşdırmağa, dövlətçilik maraqları baxımından bu sahəyə xüsusi həssaslıqla yanaşmağa çağırmışdır: *"İndi mən elmin inkişafı üçün strategiya haqqında ümumi fikirlərimi deyirəm, amma konkret olaraq bu məsələlərlə siz özünüz məşğul olmalısınız. Ancaq bir məsələ barəsində mən konkret təkliflərimi vermək istəyirəm. Bu da Azərbaycanın tarixi ilə bağlıdır. Məlumdur ki, geniş kütlə, xalq, millət üçün ən çox təsirlisi humanitar elmlərdir və xüsusən millətin, xalqın tarixi, ya ümumiyyətlə tarix onun ədəbiyyatının, mədəniyyətinin tarixidir. Bu, indi bizim üçün xüsusilə lazımdır. Əlbəttə, müstəqil Azərbaycanda fizika, riyaziyyat, biologiya, kimya, yaxud başqa fənlərin hamısı inkişaf etməlidir. Ancaq bunların hərəsinin özünəməxsus çərçivəsi var. Amma tarix hər bir insan üçün yeniyetməlikdən başlayaraq ömrünün sonuna qədər lazımdır. O cümlədən mədəniyyətimizin, ədəbiyyatımızın, elmimizin tarixi lazımdır".*

Ulu öndər Heydər Əliyev bu fikirdə idi ki, Azərbaycanın humanitar-ictimai və fundamental elm sahələri sürətlə yeniləşərək yeni dövrün reallıqlarına cavab verməli, dövlətçiliklə bağlı praktiki məqsədlərin gerçəkləşməsində, milli maraq və mənafelərin, milli ideologiyanın möhkəmlənməsində, ümumən cəmiyyətin proqressiv dəyərlər əsasında inkişafında lokomotivə çevrilməlidir. Ulu öndər bu islahatların həyata keçirilməsində AMEA-nın vəzifələrini düzgün müəyyənləşdirərək onun maddi-texniki bazasının, strukturunun təkmilləşdirilməsinə xidmət edən bir sıra mühüm sərəncamlar imzalamışdır. Azərbaycan Respublikası Prezidentinin 15 may 2001-ci il tarixli fərmanı ilə Elmlər Akademiyasına "Azərbaycan Milli Elmlər Akademiyası" statusu verilmiş, 30 mart 2001-ci il və 1 iyul 2002-ci il tarixli sərəncamlarla Rəyasət Heyətinin və akademiya işçilərinin əməkhaqları bir neçə dəfə artırılmışdır.

2002-ci ilin 12 avqustunda ulu öndər AMEA-nın Naxçıvan bölməsinin yaradılması haqqında tarixi sərəncam imzalamış, Naxçıvan Ali Məclisinin iclas zalında Heydər Əliyevin iştirakı ilə bu bölmənin yaradılmasına həsr olunmuş geniş müşavirə keçirilmişdir. Müşavirədə Heydər Əliyev blokada şəraitində yaşayan bu qədim Azərbaycan diyarının tarixinin, arxeologiya və etnoqrafiyasının, dilinin və ədəbi irsinin öyrənilməsinə daha çox ehtiyac duyulduğunu qeyd etmiş, habelə AMEA rəhbərliyinə bu sahədə genişmiqyaslı tədqiqatların aparılması, işçi qrupunun yaradılması məqsədilə müəyyən göstərişlər vermişdir.

Ulu öndər Heydər Əliyevin 4 yanvar 2003-cü il tarixli fərmanı ilə Milli Elmlər Akademiyasının statusu müəyyənləşdirilmiş, nizamnaməsi, habelə AMEA prezidenti təsdiq edilmişdir. Böyük öndərin bu addımı Milli Elmlər Akademiyası sistemində əsaslı islahatların aparılmasına, texniki bazanın modernləşdirilərək, beynəlxalq standartlara uyğunlaşdırılmasına imkan vermişdir. Beləliklə, dünya ölkələrinin elm sahəsində əldə etdiyi mütərəqqi təcrübənin mənimsənilməsinə, elmi-tədqiqat institutlarında, mərkəzlərdə işin keyfiyyət əmsalının artırılmasına, elmi ictimaiyyətin diqqətinin cəmiyyət həyatı üçün xüsusi aktuallıq kəsb edən problemlərə yönəlməsinə əlverişli şərait yaranmışdır.

Ümummilli lider Azərbaycanın milli-mənəvi dəyərlərinə, maddi mədəniyyət abidələrinə xalqın, millətin varlığının təcəssümü kimi həmişə böyük diqqət və qayğı göstərirdi. Milli Elmlər Akademiyasının həyatında baş vermiş əlamətdar hadisələrdən biri də 2002-ci il oktyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin böyük Azərbaycan dramaturqu Hüseyn Cavidin ev-muzeyinin açılışında iştirak etməsi və həmin gün Əlyazmalar İnstitutuna Azərbaycan şifahi və yazılı ədəbiyyatının şah əsəri olan "Kitabi-Dədə Qorqud"un ən qədim əlyazması olan Drezden əlyazmasının nəfis şəkildə hazırlanmış nüsxəsini (faksimilesini) hədiyyə kimi şəxsən təqdim etməsi olmuşdur. Ulu öndərin bu maddi və mənəvi dəstəyini alimlərimiz elmə dövlət qayğısının yeni nümunəsi kimi qəbul etmişdilər.

Hələ sovet Azərbaycanına rəhbərliyi dövründə formalaşdırdığı mütərəqqi ənənələri müstəqillik illərində inamla davam etdirən ulu öndər Azərbaycanın görkəmli şair, yazıcılarının, elm, incəsənət xadimlərinin yubileylərinin keçirilməsinə, ev-muzeylərinin yaradılmasına xüsusi qayğı ilə yanaşmışdır. Heydər Əliyevin bu sahədəki mədəni quruculuq siyasəti nəticəsində milli-mənəvi dəyərlərimiz qorunmuş, adət-ənənələrimiz yaşadılmış, klassiklərimizin yüz illərin sınağından günümüzə gəlib çatmış mənəvi irsinin gələcək nəsillərə itkisiz çata bilməsi üçün lazım olan bütün zəruri addımlar atılmışdır.

Ulu öndər müstəqilliyi kövrək, mövcudluğu isə real təhlükə qarşısında olan Azərbaycan dövlətini çoxlu sayda daxili və xarici qəsdlərdən qorudu. Bir sıra xarici dövlətlərin maliyyə dəstəyi, diktəsi, habelə planlaşdırması ilə hazırlanıb həyata keçirilən qəsdlərin qarşısı qətiyyətlə alındı. Bu qəsdlərdə "hakimiyyət xəstəliyi"nə tutulmuş, şəxsi ambisiyaları xalqa məhəbbət hissindən müqayisəedilməz dərəcədə böyük olan, xalqın maraqlarını düşünmədən şəxsi mənafeyinə qurban verməyə hazır olan Azərbaycanın bəzi vətəndaşları ilə yanaşı xarici ölkələrin vətəndaşları, habelə diplomatik toxunulmazlıq hüququ ilə respublikamızda çalışan bəzi xarici ölkələrin vətəndaşları da həlledici rol oynayırdılar. Heydər Əliyevi fiziki cəhətdən məhv etmək məqsədilə peşəkarlıqla hazırlanmış qəsdlər də nəticəsiz qaldı. Azərbaycan əleyhinə çirkin məqsəd birliyinə malik olan bu qüvvələr yüksək dövlət vəzifələri tutan insanları öldürməkdən, kütləvi qırğına səbəb olan müxtəlif partlayış və terror hadisələri törətməkdən də çəkinmədilər. Azərbaycan dövləti əleyhinə hazırlanmış bütün qəsdlərin qarşısı Heydər Əliyev və xalqın birgə səyi ilə alındı. Bu qəsdləri peşəkarlıqla hazırlayan və bu istiqamətdə böyük maliyyə vəsaiti xərcləyənlər Heydər Əliyev və xalq birliyinin hansı gücə malik olduğunu nəzərdən qaçırmışdılar. Hadisələrin sonrakı gedişatında bu gücün nəyə qadir olduğunu tarix dönə-dönə təsdiqlədi.

1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə Qərb şirkətlərinin Xəzər hövzəsinə külli miqdarda investisiya yatırması Azərbaycana ən müasir innovasiya və informasiya texnologiyalarını gətirməklə yanaşı, demokratik proseslərin, hüquqi-siyasi islahatların sürətlənməsinə, vətəndaş cəmiyyətinin formalaşmasına, habelə Avropanın nüfuzlu beynəlxalq təşkilatları ilə əməkdaşlıq xəttinin güclənməsinə ciddi təkan vermişdir. Avropa Şurası, ATƏT, Avropa Birliyi kimi mühüm beynəlxalq təşkilatlarla əməkdaşlıq təkcə siyasi-hüquqi deyil, ictimai həyatın digər sahələrində də kardinal dəyişikliklərə yol açmış, respublikamıza xarici sərmayə qoyuluşlarının həcmi artmış, iqtisadi modernləşmə və siyasi liberallaşma üçün əlverişli zəmin formalaşmışdır.

Müstəqil Azərbaycan dövlətinin banisi - ulu öndər Heydər Əliyev güclü dövlət yaratmaqla yanaşı, onu özündən sonra inamla idarə edəcək, çoxşaxəli mütərəqqi islahatların varisliyini uğurla təmin edəcək peşəkar lider də yetişdirmişdir. Hələ 2003-cü ilin oktyabrında ulu öndər Heydər Əliyevin "Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" deməklə cəmiyyətə özünün layiqli davamçısı kimi təqdim etdiyi cənab İlham Əliyevin son 16 illik prezidentlik fəaliyyətinin ümumi təhlilinə nəzər saldıqda, həmin fikrin təxmin deyil, qəti qənaət olduğunun bir daha fərqinə varırıq.

Ümummilli liderin müəyyən etdiyi strategiyanı ötən müddətdə uğurla həyata keçirən və yeni dövrün ruhuna uyğun zənginləşdirən Azərbaycan Prezidenti İlham Əliyevin ölkəyə rəhbərlik fəaliyyətini diqqətlə nəzərdən keçirdikdə, onun xalqına, dövlətinə necə qəlbən bağlı lider olduğu bir daha təsdiqini tapır. Dövlət başçısının idarəçilik keyfiyyətlərindən ən mühümü, şübhəsiz, uzun illər boyu zərrə-zərrə formalaşaraq sabitləşmiş milli dövlətçilik ənənələrinə sadiqlikdir. Ölkədə həyata keçirilən effektiv iqtisadi islahatlar kursunu uğurla davam etdirərək dövrün tələblərinə uyğun yeni çalarlarla zənginləşdirən dövlət başçısı cənab İlham Əliyev xalq qarşısında verdiyi bütün vədləri ardıcıl və sistemli surətdə yerinə yetirmişdir.

Azərbaycanın sosial-iqtisadi yüksəlişi bu gün, ilk növbədə, insanların gündəlik həyatında özünü qabarıq büruzə verir. Azərbaycan Prezidenti yürütdüyü siyasətin məqsədyönlülüyü, ardıcıllığı, obyektiv gerçəkliyə adekvatlığı, bu siyasətin ölkənin milli mənafelərini əks etdirməsi respublikanın hər bir vətəndaşında gələcəyə böyük inam və əminlik yaradır. Cənab İlham Əliyev qısa dövr ərzində imzaladığı məqsədyönlü fərman və sərəncamlarla, qəbul etdiyi praqmatik qərarlarla, habelə obyektiv reallıqdan irəli gələn addımları ilə ölkəmizin dinamik yüksəlişini təmin etmiş, dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olmuşdur.

"Mən bütün Azərbaycan xalqının, hər bir Azərbaycan vətəndaşının Prezidentiyəm. Mənim borcumdur ki, imkan daxilində hər bir vətəndaş inkişafa, yaxşılığa doğru irəliləyişi görsün və onu hiss eləsin" - deyən cənab İlham Əliyev ulu öndərin dövlətçilik irsinə sədaqətini bir daha nümayiş etdirir. Dövlət başçısının ötən illərdə ölkədə apardığı genişmiqyaslı islahatlar, respublikamızı bölgədə və bütövlükdə Avratlantika məkanında nüfuzlu dövlətə çevirməsi həm daxildə, həm də xaricdə ciddi siyasi dəstək almasına zəmin yaradıb. Bir vaxtlar qeyri-mümkün kimi görünən transmilli layihələrin real həyata vəsiqə alması, paytaxt və regionlarımızın sürətlə abadlaşması insanların yaşayış səviyyəsinin ildən-ilə yaxşılaşdırılması məhz bu zaman kəsiyində reallaşıb.

Prezident seçkilərindən ötən 1 il ərzində də bütün sahələrdə aparılan davamlı islahatlar bu siyasi kursa alternativin olmadığını sübut etməklə nüfuzlu qurumlar, eləcə də beynəlxalq reytinq agentlikləri tərəfindən də yüksək qiymətləndirilir. Prezident İlham Əliyevin son bir ildə xalqın maraqlarını ehtiva edən çoxşaxəli islahatlar kursu barədə nüfuzlu reytinq agentliklərindən biri hesab olunan Fransanın "Opinion Way" şirkəti tərəfindən Naxçıvan Muxtar Respublikası istisna olmaqla, Azərbaycanın bütün bölgələrində keçirdiyi rəy sorğusu da bu baxımdan diqqəti cəlb edir. Xüsusi vurğulamaq lazımdır ki, adıçəkilən nüfuzlu təşkilat 2018-ci il prezident seçkiləri ərəfəsi də rəy sorğusu keçirmiş və ölkə əhalisi cənab İlham Əliyevə böyük dəstək nümayiş etdirmişdi.

Budəfəki sorğunun nəticələrinə görə, respondentlərin 80,1 faizi ölkədəki mövcud ictimai-siyasi və sosial-iqtisadi sabitliyin qorunub saxlanılmasını Prezident İlham Əliyevin fəaliyyətinin ən uğurlu nəticəsi kimi dəyərləndirib. Respondentlərin fikrinə görə, dünyada və bölgədə yaşanan çoxsaylı mənfi proseslərdən asılı olmayaraq, Azərbaycan son bir ildə ictimai-siyasi sabitlik şəraitində öz dinamik sosial-iqtisadi inkişafını davam etdirib, xalqın əmin-amanlığı və rifahı naminə bütün zəruri addımlar atılıb, əhalinin firavan həyatı üçün ardıcıl tədbirlər görülüb. Sorğunun "Prezident İlham Əliyevin son bir ildə gördüyü işləri necə qiymətləndirirsiniz" sualına respondentlərin 85,1 faizi bütövlükdə müsbət cavab verib. Sorğunun Prezident İlham Əliyevin xarici siyasəti ilə bağlı nəticələri də vətəndaşlar tərəfindən müsbət qarşılanıb.

Bu il də Azərbaycanın xarici siyasət strategiyasında milli maraqlarımızın maksimum müdafiə edilməsi, intensivliyi və məqsədyönlülüyü ilə ehtiva olunub. Son bir ildə Prezident İlham Əliyev xarici ölkələrdə 17 dəfə səfərdə olub, ondan çox ölkənin dövlət və hökumət başçısı ölkəmizə səfər edib. Ötən 1 ildə də xarici siyasətdə Azərbaycanın müstəqil mövqeyinin önə çıxarılması, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində prinsipial və qətiyyətli xəttin saxlanılması, dünya dövlətləri ilə bərabərhüquqlu tərəfdaşlıq, beynəlxalq qurumlarda layiqli təmsilçilik belə bir yüksək rəyin ifadə olunmasına gətirib çıxarıb.

- Ötən bir ildə Avropa İttifaqı ilə Yeni Tərəfdaşlıq Prioritetləri müəyyənləşdi, Qoşulmama Hərəkatına sədrlik Azərbaycana həvalə edildi, Xəzər dənizinin hüquqi statusu ilə bağlı Konvensiya imzalandı.

- 2018-ci ildə hərbi sahədə böyük nailiyyətlər qazanıldı, Naxçıvanda uğurlu Günnüt əməliyyatı nəticəsində 11 min hektar torpağa tam nəzarət olundu.

- Ötən ilin mayında Cənub Qaz Dəhlizinin, iyunda isə onun mühüm hissələrindən biri olan TANAP-ın Trans-Anadolu Boru Kəmərinin açılışı oldu.

"Opinion Way"in sorğusuna respondentlərin verdiyi cavablar Azərbaycan cəmiyyətinin Prezident İlham Əliyevə böyük etimad bəslədiyini bir daha təsdiq edir. Ümumiləşdirilmiş nəticələr onu göstərir ki, əgər bu gün yenidən prezident seçkiləri keçirilsə, İlham Əliyev ölkə seçicilərinin mütləq çoxluğunun, təxminən 83-85 faizinin səsini qazana bilər.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar artıq Azərbaycanın gerçəkliyinə çevrilib. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Heydər Əliyev taleyin xalqımıza bəxş etdiyi böyük şəxsiyyət olmaqla Azərbaycanın tarixi inkişaf prosesinə təkan verib. Bu siyasi kursu layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycan və dünya siyasi arenası üçün uğurlu siyasi lider olduğunu birmənalı şəkildə sübuta yetirib. Bir sıra politoloqlar haqlı olaraq qeyd edirlər ki, onun siyasətçi kimi formalaşmasına təsir göstərən amillər sırasında populizm və psevdovətənpərvərlik kimi amillər yoxdur. Əksinə, reallığı düzgün qiymətləndirmək bacarığı, praqmatikliyi və məqsədə doğru inamla irəliləməsi cənab İlham Əliyevə xalqın rəğbət hissini daha da artıran ən mühüm mənəvi keyfiyyətlərdir. Bir sözlə, dövlət başçısının alternativsiz olan Heydər Əliyev siyasi kursunu reallaşdırmaqla bu gün Azərbaycan Cənubi Qafqazda lider statusunu qoruyub saxlamaqla dünyada sözü eşidilən dövlətə çevrilib.

**İlham MƏMMƏDZADƏ,**
**AMEA-nın Fəlsəfə İnstitutunun direktoru,**
**Fəlsəfə elmləri doktoru, professor.**

# Ulu öndərin ideyaları yaşayır və qalib gəlir

**Ümummilli lider Heydər Əliyevin memarı və qurucusu olduğu müstəqil dövlətimiz bu gün onun müəyyənləşdirdiyi yolla qətiyyətlə irəliləyir. İqtisadi cəhətdən get-gedə möhkəmlənən Azərbaycan artıq dünyanın inkişaf etmiş dövlətləri ilə sıx əlaqələr yaratmaqla bərabər həm də dinamik tərəqqi edir. Şübhəsiz ki, bu gün iqtisadi, elmi, mədəni və sair sahələrdə qazanılan uğurlar məhz Heydər Əliyev irsindən qaynaqlanır, onun zəngin və tükənməz təcrübəsinə söykənir.**

Öz xalqını sonsuz məhəbbətlə sevən müdrik siyasətçi, alternativsiz fenomen dövlət rəhbəri kimi ürəklərdə özünə əbədi yer tutan ümummilli liderimiz Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra bütün sahələrdə olduğu kimi, elm və təhsil sahəsində də köklü islahatlar dövrü başlandı. Ulu öndər müstəqillik qazanan dövlətimizin parlaq gələcəyinin məhz təhsilin inkişafından asılı olduğunu çox yaxşı bilir və bunu özünün bütün çıxışlarında dönə-dönə vurğulayırdı. Qətiyyətlə demək olar ki, Azərbaycan müstəqillik qazandıqdan sonra təhsilimizin milli əsaslar üzərində yenidən qurularaq inkişaf etdirilməsi də məhz Heydər Əliyev dühası sayəsində reallaşmışdır. Ulu öndər təhsilə son məqsəd və nəticə kimi deyil, vasitə kimi baxırdı. Həyatın müxtəlif sahələrində uğur qazanmaq üçün müvafiq yönümlü ixtisas biliklərinə yiyələnməyin zəruri olduğunu düşünən ulu öndər "Təhsil millətin gələcəyidir" tezisi ilə millətin xoşbəxt gələcəyi üçün müdrik siyasət yürüdürdü: "Bu gün biz Azərbaycanda bütün təhsilin - orta, texniki, peşə, orta ixtisas məktəblərinin və ali məktəblərin işinin yaxşılaşdırılması sahəsində ciddi tədbirlər görməliyik. Mən hesab edirəm ki, bunlar həm qəbul olunacaq təhsil qanununda, həm də təhsil islahatı ilə əlaqədar qəbul ediləcək digər qanun və qərarlarda öz əksini tapacaqdır. İndi bizim təhsil sistemimiz müstəqil Azərbaycanın gələcək inkişafını təmin etməlidir. Bu yolda keçiriləcək islahatlar gərək müstəqil Azərbaycanın milli mənafelərinin inkişafına yönəldilsin".

Doğrudan da, son illər ərzində Azərbaycanda təhsil sahəsində həyata keçirilən bütün islahatlar, qəbul edilən Dövlət proqramları, "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu" bu amala xidmət etdi və təhsilimizin Avropa təhsil məkanına inteqrasiyasına, rəqabətədavamlılığına əlverişli zəmin yaratdı.

Təhsilin inkişafı ilə bağlı dövlətimizin məqsədyönlü fəaliyyəti uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ulu öndərin ideyalarının həyata keçirilməsi üçün xüsusi səy göstərir. Məhz 24 oktyabr 2013-cü ildə Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" təhsilimizin inkişafı üçün yeni perspektivlər açır və onun uğurlu gələcəyindən xəbər verir. Böyük fərəh hissi ilə qeyd etmək lazımdır ki, ölkənin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü, diqqət və qayğısı ilə son illərdə Azərbaycanın müxtəlif şəhər və rayonlarında, ən ucqar kəndlərdə "Yeniləşən Azərbaycana yeni məktəb" devizi altında tikilən və müasir standartlara cavab verən, hər cür avadanlıqlarla təchiz olunmuş yüzlərlə gözəl məktəb binası, məktəbəqədər müəssisələr təhsilin keyfiyyətinin daha da yaxşılaşdırılmasına gözəl imkanlar yaratmışdır.

1993-cü ildən başlayaraq müstəqil Azərbaycanda davamlı şəkildə həyata keçirilən islahatlar sırasında təhsil sahəsində görülən tədbirlər xüsusilə diqqəti cəlb edir. Ulu öndərin siyasi hakimiyyətə qayıdışından sonra bu sahədə həyata keçirilən islahatların məqsədlərindən biri də milli-mənəvi dəyərlərə bağlı olan, dövlətçiliyə sədaqətli vətənpərvər, mübariz nəsil yetişdirməkdən ibarət idi. 1999-cu ilin məhz 15 iyun tarixində ümummilli liderimiz Heydər Əliyev tərəfindən 168 nömrəli sərəncamla imzalanmış "Təhsil islahatı haqqında Dövlət Proqramı" bu baxımdan yeni mütərəqqi strateji bir sənəd idi. Azərbaycan təhsili yeni əsrə təhsil quruculuğunun əsas istiqamətlərini özündə əks etdirən bu mühüm və tarixi sənədlə daxil olmuşdur. Üç mərhələdə həyata keçirilməsi nəzərdə tutulan bu mühüm sənəd ölkəmizdə təhsilin inkişafı üçün olduqca böyük önəm daşıyır.

İslahat proqramında cəmiyyətin təkamülünə əsaslanan başlıca prinsiplər və dövlət siyasətinin əsas istiqamətləri konkret şəkildə ifadə olunmuşdur. Bu sənəddə başlıca prinsiplər təhsilin demokratikləşdirilməsi, humanistləşdirilməsi, beynəlxalq təhsil sisteminə inteqrasiyası, diferensiallaşdırılması, fərdiləşdirilməsidir. Müstəqilliyimizin ilk illərində bu sahədə mövcud olan nöqsanlar, əlavə təhsillə bağlı ciddi problemlər, pərakəndəlik, yeni təlim metodlarından, ümumiyyətlə Avropa standartlarından kənarda qalmaq və sair kimi nöqsanlar təhsilin yenidən qurulmasının vacibliyini qarşıya qoyurdu.

Məhz ulu öndərin uzaqgörən, düşünülmüş, gələcəyə hesablanmış siyasəti nəticəsində Azərbaycan təhsilinin olduqca böyük problemləri həll edilə bildi. Ulu öndərimizin Azərbaycan dövlətçiliyi qarşısında xidmətlərindən biri də dövlət quruculuğunun hüquqi bazasının yaradılmasıdır.

1995-ci ildə qəbul olunmuş ilk milli Konstitusiya Azərbaycan Respublikasının demokratik, hüquqi, dünyəvi dövlət kimi inkişafının təməlini qoydu, insan hüquq və azadlıqlarının qorunmasını ön plana çəkdi.

Azərbaycanda milli diaspor quruculuğunun formalaşması kimi olduqca mühüm bir hadisə də məhz ulu öndərimizin adı ilə bağlıdır. Ölkəmizin beynəlxalq imicinin formalaşmasında, dünyaya səpələnmiş soydaşlarımızın vahid bir ideya ətrafında birləşməsində də xalqımızın böyük oğlunun xidmətləri danılmazdır.

Heydər Əliyev həmişə öz çıxışlarında qeyd edirdi ki, xarici ölkələrdə güclü diaspor və lobbi formalaşdırmadan xarici siyasətdə milli maraq və mənafeləri beynəlxalq müstəvidə müdafiə etmək çətindir.

"Biz azərbaycançılığın dövlət rəmzlərini yaşadan müstəqil dövlətimizin ətrafında daha sıx birləşməli, onun tərəqqisi üçün əlimizdən gələni əsirgəməməliyik". Ulu öndərin bu kəlamları illər ötdükcə daha əzəmətlə səslənir.

Xalqımızın müdrik oğlunun ən böyük xidmətlərindən biri də onun müəyyənləşdirdiyi siyasi kursu uğurla davam etdirən layiqli varis yetişdirməsidir. 2003-cü ilin oktyabrında xalqa ünvanladığı tarixi müraciətində ulu öndər demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Bu gün böyük inamla deyə bilərik ki, ölkəmizdə ulu öndərin ideyaları yaşayır və qalib gəlir.

**Filyar İBRAHİMOVA,**
**Şəki şəhər 5 nömrəli**
**tam orta məktəbin direktoru,**
**respublikanın Əməkdar müəllimi.**

# Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun plenar sessiyasında gənclərin ekstremizmə qarşı mübarizədə rolu məsələsi müzakirə olunub

## *Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva plenar sessiyada iştirak edib*







*Mayın 3-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Gənclər sülh naminə: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması" mövzusunda ikinci plenar sessiya keçirilib. AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva sessiyada iştirak edib.*

*BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinosun moderatorluğu ilə keçirilən sessiyada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva çıxış etdi.*




### Xanım Leyla Əliyevanın çıxışı

-Əziz dostlar.
Həmkarlar.
Xanımlar və cənablar.

İlk növbədə, mən sizin hamınızı gözəl Bakı şəhərində keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda salamlamaqdan məmnun olduğumu bildirirəm. Bu platforma sülh şəraitində yaşamanı daim təbliğ etmişdir. Dünyamızı daha yaxşı etmək üçün bir çox ölkələrdən insanları burada bir arada görmək olduqca xoşdur. Bu gün bizim hamımızın burada bir araya gəlməyimizin səbəbi zəngin fərqliliklər, mədəni müxtəlifliklər, bəşəri dəyərlər və anlaşmadır.

Mən sülhün və müxtəlifliyin təbliğində məhz gənclərin rolunu xüsusi qeyd etmək istərdim. Gənclərin çoxsaylı şəbəkələr yaratmaq, özü də bütün mümkün sərhədləri keçmək kimi gözəl qabiliyyətləri var. Sülh və harmoniya uğrunda mübarizədə gənclərə əksər hallarda ümidsiz romantiklər kimi baxırlar. Amma deyərdim ki, bu, qeyri-səmimi yanaşmadır. Əminəm ki, gənclərin dialoqa açıqlığı sülhə və rifaha gətirib çıxaracaq.

Əziz dostlar, təhsil yalnız bilik və peşəkar inkişaf bacarıqlarının qazanılması deyil. Həmçinin mənəvi təhsil də bunlar qədər vacibdir. Bu baxımdan ailələr və məktəblər iki mühüm təsisatdır. Əməkdaşlıq, anlaşma və bütün bəşəriyyətə rəğbət və hörmət dəyərləri aşılayan ailə uşaqları sülhpərvər dünyaya hazırlamaqda mühüm rol oynayır. Bunlar olmayanda boşluğu nifrət və dözümsüzlük doldurur. Eyni zamanda, gənclərə doğru-düzgün təhsil vermək onların tam potensialının reallaşması üçün çox vacib bir amildir. Çünki gənclərin tez öyrənmək, eləcə də prosesləri izləmək, çoxsaylı məlumatları əldə etmək kimi bacarıqları var. Həmçinin onlar ətraf mühitin mühafizə olunması və təbiətin bizə bəxş etdiyi nemətlər barədə çox məlumatlıdırlar.

Bununla belə gənclərə həddindən artıq təzyiq göstərilməməlidir. Bəzən ən intellektli gənclər belə tam xoşbəxt olmurlar. Ona görə də biz gənclərə dəstək göstərərək bundan da yaxşı bir dünya yaratmağa nail olmalıyıq ki, onlar gözəl planetdə və harmoniya içərisində yaşamaqdan daha çox zövq alsınlar. Yüksək texnologiyanın inkişafı sayəsində biz fikirlərimizi daha sürətlə ifadə edirik. Bizim fikirlərimiz ən güclü enerjilərdəndir, hətta işıq sürətindən də sürətlidir. Dünya bu potensiala investisiya yatırmalı və əmin olmalıdır ki, gənc nəslin inkişaf üçün bütün zəruri imkanları var. Bu gün dünyada gənclərin sayı daha çoxdur. İdeyalar və yüksəlişlər bütün planetin gələcəyini dəyişə bilər. Amma əfsuslar olsun ki, 617 milyona yaxın gənc hələ də riyazi və ədəbi biliklərdən məhrumdur. Bu, o deməkdir ki, biz çox dəyərli bir potensialı itiririk. Məhz gənclər tərəqqinin təcəssümüdür. Hər bir yeni nəsil əvvəlkindən daha mütərəqqi, humanist, həssas, tolerant və açıqfikirlidir. Bu isə tarixin təbii təkamülüdür. Gəlin gənclərə öz enerjilərini qlobal problemlərin həllinə yönəltməkdə kömək edək, gəlin hamılıqla onlara dəstək olaq. Vaxt həyatımızın ən mühüm resursudur. Gəlin onu israf etməyək. Sözlər daim əməllə müşayiət olunmalıdır. Hər bir bəşər övladına verilmiş müqəddəs hədiyyə olan intuisiyamızı unutmamalıyıq. Xalqların sülhsevər və dayanıqlı cəmiyyət formalaşdırmasında hər bir kəs fərqlilik yarada bilər. Beləliklə də onlar özlərini dəyişməklə bəşəriyyətə olan baxışlarını müsbət mənada dəyişə bilərlər.

Əziz dostlar, İsa peyğəmbərin dediyi kimi, gəlin uşaqlardan öyrənək. Uşaqlar sözü birbaşa deməyə və yaxşı işlər görməyə can atırlar. Maddiyyat heç də uğur, müvəffəqiyyət demək deyil. Həyatda ən vacib olan sevgidir, sağlamlıqdır, xoşbəxtlikdir, birlikdir, anlaşmaqdır və bir-birini təmənnasız şəkildə dəstəkləməkdir. Bütün bunları hamımıza diləyirəm. Çox sağ olun.

* * *

BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos dedi ki, bu plenar sessiyada müzakirəyə çıxarılan məsələlərə yeni baxışla yanaşılacaq. Sessiyanı mənfi düşüncələri dəyişmək üçün gözəl fürsət adlandıran BMT təmsilçisi gəncləri ekstremizm, nifrət kimi amillərdən qorumağın vacibliyini vurğuladı.



Sessiyadakı müzakirələr cəmiyyətdə gənclərin rolu, təhsil, sülh quruculuğu və dinlərarası dialoq mövzularını əhatə etdi. Somali Stabilləşmə Təşəbbüsünün biliyin idarə olunması və strateji kommunikasiyalar üzrə rəsmisi Nacma Əhməd-Hüseyn ölkəsində müxtəlif etnik qrupların bir araya gəlməsi üçün həyata keçirilən layihələrdən danışdı. Sənədli filmlər rejissoru Roda Siad reallaşdırdığı layihələr vasitəsilə miqrasiya böhranı, qaçqınların və digər ölkələrdə sığınacaq axtaranların taleyi, onların qarşılaşdığı çətinlikləri barədə cəmiyyətə məlumatların verilməsinin əhəmiyyətinə toxundu. Erbildə "Malteser İnternational"un ictimai əlaqələr üzrə məsləhətçisi Sara Markieviç İraqdakı icmalar arasında qeyri-sabit vəziyyət barədə məlumat verərək bu istiqamətdə dinlərarası dialoqun roluna nəzər saldı. Zorakı ekstremizmin qarşısının alınması üzrə mütəxəssis Selim Çerkau terrorizmə görə məhkum edilmiş məhbuslar arasında maarifləndirmə işlərinin aparılması, onların cəmiyyətə adaptasiyası və baxışlarının dəyişməsi istiqamətlərində həyata keçirilən layihələrdən bəhs etdi. Pakistan Gənclər Alyansının "Peace Rickshas" layihəsinin təsisçisi Syed Ali Abbas Zaidi zorakı ekstremizmə qarşı layihə və onun nəticələri ilə bağlı fikirlərini çatdırdı, bu layihənin 15 min insanı əhatə etdiyini söylədi. "Efemerides"in təsisçisi Fatoumata Kebe gənclərə imkanlar yaradılması, problemlərin həllində onlara səlahiyyət verilməsi istiqamətində həyata keçirilən layihəsindən danışdı. Qeyd etdi ki, Malidə yalnız 30 faiz qızların məktəbə getmək imkanı var və onun rəhbərlik etdiyi təşkilat belə ölkələrdə müxtəlif fənlər üzrə dərslər təşkil edir. Mərkəzi Avropa Universitetinin beynəlxalq münasibətlər üzrə magistr namizədi Corc Antonio Şavez Mazuelos, "Sri Lanka Unites" Gənclər Hərəkatının milli direktoru Liyanaaraççig Neluni Tillekeratne, "Emkan Education"nın məktəb və məzmun üzrə direktoru və həmtəsisçisi Sara Zaini, BMT-nin Gənclər Siyasəti üzrə mütəxəssisi Ansa Qliqa, Dinlərarası Mediasiya Mərkəzinin həmicraçı direktoru İmam Muhammad Nurayn Aşafa, Dinlərarası Mediasiya Mərkəzinin həmicraçı direktoru Pastor Ceyms Movel Vuye, "Burson, Cohn and olf"un idman hesabları üzrə baş icraçısı Nevena Vukasinovic, Lvov şəhərinin merinin dini məsələlər üzrə müşaviri Taras Dzyubanski gənclərin fəallığı üçün proqramların əhəmiyyətini, zorakılığa, terrorizmə məruz qalan gənclərin təhsil almasında təqaüd proqramlarının faydasını qeyd etdilər.

Sonda sessiya iştirakçılarının sualları cavablandırıldı.

**AZƏRTAC**

# Etnik-mədəni müxtəlifliyin artması və onun tənzimlənməsində çoxmədəniyyətlilik siyasəti xüsusi əhəmiyyət kəsb edir





**Mayın 3-də Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində "Müasir dünyada etnik-mədəni müxtəlifliyin artması və onun tənzimlənməsində çoxmədəniyyətlilik siyasətinin əhəmiyyəti" mövzusunda növbəti sessiya keçirilib.**

AZƏRTAC xəbər verir ki, sessiya Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi (BBMM) tərəfindən təşkil edilib.

Heydər Əliyev Fondunun vitse-prezidenti, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının üzvü Leyla Əliyeva sessiyada iştirak edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov tədbirə moderatorluq edib. O, Azərbaycandakı multikultural mühit barədə məlumat verib.

Şöbə müdiri bildirib ki, etnik və mədəni müxtəliflik öz-özlüyündə müsbət fenomendir. Çünki bu, etnik və mədəni dəyərlərə söykənir. Yəni, insanın davranışına, onun vərdişlərinə bağlanır və bunlar bütövlükdə bizim bugünkü fəaliyyətimizi istiqamətləndirir. Lakin bu məsələlər dövlət tərəfindən tənzimlənməlidir. Belə olmasa müxtəlif münaqişələr dini və etnik əsaslarla meydanda əmələ gələ bilər. Azərbaycan multikulturalizm, tolerantlıq məkanıdır. Azərbaycan öz multikulturalizm siyasəti ilə tanınan ölkədir. Multikulturalizm ölkəmizdə dövlət siyasətinin bir hissəsidir. Bu siyasətin əsasını ulu öndər Heydər Əliyev qoyub. Hazırda həmin siyasət onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Tədbirdə çıxış edən BBMM-in Himayəçilik Şurasının sədri Kamal Abdullayev multikulturalizmin Azərbaycanın dövlət siyasəti olduğunu bildirib. Qeyd edib ki, Azərbaycanda dinlərarası harmoniya, qədim tolerantlıq və multikulturalizm ənənələri mövcuddur. Əhalisinin əksəriyyəti müsəlman olan ölkəmizdə İslam dini ilə yanaşı, digər dinlərə mənsub insanlar qarşılıqlı anlaşma, mehriban qonşuluq və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanda tarixən mövcud olan bu ənənələrin qorunması və inkişafı, eləcə də multikultural dəyərlərin təbliği ölkə rəhbərliyinin daim diqqət mərkəzindədir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bildirib ki, multikulturalizmin təbliği dini dəyərlərin, Azərbaycanda yaşayan müxtəlif etnik qruplardan ibarət xalqımızın tarixinin, mədəniyyətinin təbliği olmaqla yanaşı, xalqımızın bütün dünyaya verdiyi sevgi, mərhəmət mesajıdır. M.Qurbanlı tədbir iştirakçılarını Azərbaycanın multikulturalizm ənənələri barədə məlumatlandırıb, ölkəmizdə mövcud olan müxtəlif dini icmalar, dövlət-din münasibətlərini tənzimləyən qanunvericilik bazası və bu sahədə dövlət siyasətindən danışıb.

ABŞ Etnik Anlaşma Fondunun prezidenti Mark Şnayer, Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Fuad Nurullayev, Los-Anceles Xristian Dini Mərkəzinin rəhbəri, yepiskop Xuan Karlos Mendez, Kolumbiya ştatının Vaşinqton Hüquq Assosiasiyasının məsləhətçisi Janna Skot və başqaları çıxış edərək ölkəmizdəki multikulturalizm mühitinin bütün dünyaya nümunə olduğunu bildiriblər. Qeyd edilib ki, multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olub, bu gün isə etnik mənsubiyyətindən, dilindən, dinindən asılı olmayaraq Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilib. Bu, olduqca təqdirəlayiq haldır.

Tədbir müzakirələrlə davam edib.

**AZƏRTAC**

*Şanana Qusmao:*

## Bakı Forumundakı müraciətlərin və çağırışların fayda verəcəyinə inanıram

**Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda müxtəlif sessiyalar keçirilir, çox mühüm məsələlər müzakirə edilir. Burada dünyanın fərqli qurum və təşkilatlarının məsul şəxsləri iştirak edirlər. Onlar vacib problemlərin həlli istiqamətində təkliflərini irəli sürür, həmçinin bir-biriləri ilə əlaqə yaradırlar. İnanıram ki, Forumdakı müraciətlər və çağırışlar öz faydasını verəcək.**

Bu fikirləri Şərqi Timor Demokratik Respublikasının sabiq prezidenti, Şimal-Cənub Mükafatının laureatı (2002) Şanana Qusmao AZƏRTAC-a müsahibəsində deyib.

"Azərbaycanda olmaqdan məmnunam. Bilirəm ki, bu ölkədə bütün dinlərin nümayəndələri, milli azlıqlar sülh və əmin-amanlıq şəraitində yaşayırlar. Azərbaycanın multikulturalizm siyasəti, insan hüquqlarının təmin edilməsi istiqamətində görülən işlər digər ölkələrə nümunədir", - deyə Ş.Qusmao bildirib.

Sabiq prezidenti Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun çox yüksək səviyyədə təşkil olunduğunu və tədbirdə iştirakından məmnunluğunu qeyd edib.

**AZƏRTAC**

*Alfredo Nieves Portuondo:*

## Forum dünyanı birliyə, sülhə və dialoqa çağırır

**Bu forum artıq beşinci dəfədir ki, keçirilir və ildən-ilə nüfuzu artır. Dünyada mövcud vəziyyət elədir ki, tolerantlıq qorunmur, bununla yanaşı, bir çox qruplaşmalar insanların sakitliyini pozur. Yaşadığımız dünyada hələ də müharibələrə çağırışlar səsləndirilir.**

Bu sözləri AZƏRTAC-a müsahibəsində V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı Kubanın Azərbaycandakı səfiri Alfredo Nieves Portuondo deyib.

Dünya ictimaiyyətinin belə bir foruma ehtiyac duyduğunu vurğulayan diplomat deyib: "Azərbaycan hökumətinə belə bir forumu təşkil etdiyinə görə minnətdar olmalıyıq. İndi Bakı bütün dünyanın bir növ paytaxtına çevrilib. Bu görüş düşünənlər üçündür. Bu bir növ insanlara, bütünlükdə cəmiyyətə həyəcan siqnalı verən bir forumdur. Forum dünyanı birliyə, sülhə və dialoqa çağırır.

Səfir Mədəniyyətlərarası Dialoq Forumunun bütün dünyaya öz töhfəsini verəcəyinə inamını ifadə edib.

**AZƏRTAC**

# Sülhün təbliğində, zorakılığa və terrorizmə qarşı mübarizədə gənclərin birgə səyləri səmərəli nəticələr verə bilər





**Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “Gənclərdən nə öyrənə bilərik: sülhü təşviq etmək və müxtəlifliyi əhatə etmək məqsədilə inklüziv yanaşmaların müzakirəsi” mövzusunda növbəti sessiya keçirilib.**

AZƏRTAC xəbər verir ki, UNESCO-nun təşkilatçılığı, “FUEL” layihəsinin təsisçisi və bədii rəhbəri Dipak Ramolanın moderatorluğu ilə keçirilən sessiyada müasir dövrdə sülhün və əmin-amanlığın təbliği, zorakılığa və terrorizmə qarşı mübarizə yolları, bu sahədə gənclərin rolu və digər məsələlər müzakirə olunub.

Tədbirdə çıxış edən gənclər və idman nazirinin müavini Fərhad Hacıyev sessiyanın mövzusunun müasir dövr üçün aktuallığını qeyd edib və gənclərə həsr olunan bölmənin əhəmiyyətini vurğulayıb. O, zorakılığa qarşı mübarizə yollarından, ekstremizmin qarşısının alınmasında görülən işlərdən, bu istiqamətdə dini liderlərin fəaliyyətindən söz açıb. Fərhad Hacıyev deyib ki, zorakılıq, ekstremizm və terrorizm zəminində qeyri-tolerantlıq yaranır, irqi, etnik və dini münaqişələr meydana gəlir. Bu münaqişələr dünyanı bürüyür, terrorizm və dözümsüzlük sərhəd tanımır. Bu da istənilən cəmiyyət, xüsusilə də gənclər üçün təhlükələr yaradır. Beynəlxalq təşkilatlar indiyədək zorakılıq, ekstremizm və terrorizmə qarşı heç bir səmərəli mübarizə mexanizmi aşkar etməyiblər. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi bütün dünyaya məlumdur. Torpaqlarımızın iyirmi faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub.

Nazir müavini inandığını bildirib ki, müxtəlif qitələrdən olan insanları bir araya gətirən mədəniyyətlərarası dialoq mədəni fərqləri, xüsusiyyətləri, savadsızlığı aradan qaldıracaq və buna öz töhfəsini verəcək. Fərqliliyi aradan qaldırmaq üçün bir olmalı, bunun üçün təhsil, idman, incəsənət, mədəniyyət və digər sahələrdən istifadə etməli və birləşdirici mövqe tutmalıyıq. Azərbaycanda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu bu məqsədlərə çatmaq və təcrübəni bölüşmək üçün ən səmərəli, əvəzsiz platformadır. Dünya gəncləri öz həmkarları ilə qeyd olunan sahələr vasitəsilə əlaqə saxlayıb zorakılığa, terrorizmə qarşı birgə mübarizə apara bilərlər. Bunun üçün gənclər sosial təcrübəyə cəlb olunmalıdırlar.

Fərhad Hacıyev Azərbaycanın multikultural ölkə olduğunu, ölkəmizdə bütün etnik qrupların və dini icmaların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadıqlarını söyləyib. O, Azərbaycanın bütün sahələrdə inkişaf etdiyini və regional inkişafa töhfələr verdiyini qeyd edib.

UNESCO-nun nümayəndəsi Paula İsturiz Cavero UNESCO tərəfindən fərqli məkanlarda zorakılığa və ekstremizmə qarşı həyata keçirilən layihələrdən, görülən işlərdən söz açıb. O deyib: “Bizim məqsədimiz dünya gənclərini birləşdirmək, sülh və əmin-amanlığı təbliğ etməkdir. Məlumdur ki, gənclər mədəniyyət sahəsində həyata keçirilən layihələrdə, sülhün bərqərar olmasında fəal iştirak edirlər. Hazırda dünyada hər dörd gəncdən biri zorakılığa məruz qalır. Beynəlxalq təşkilatlar çalışır ki, gənclər də müvafiq qurumlarda fəaliyyət göstərərək bu proseslərə öz töhfələrini versinlər. Bununla bağlı 2015-ci ildən müəyyən təşəbbüslər həyata keçirilir. BMT-nin müvafiq strategiyasında gənclər sülh və müqavimət səfirləri sayılır. UNESCO gənclərin inkişafı istiqamətində çox uğurlu layihələr həyata keçirir”.

İclasda çıxış edən moderator Dipak Ramola, Kanadanın UNESCO üzrə Komissiyasının İcraçı Komitəsinin üzvü və Gənclik Məşvərət Qrupunun sədri Büşra Ebadi, “Guyana Golden Lives Organization” təşkilatının təsisçisi Marva Langevin, “Al Qantara” layihə koordinatoru Hanin Tabet, “hitaker” Sülh və İnkişaf Təşəbbüsünün təlimçisi Kollins Monday Okello, “Shughel Shabab”ın həmtəsisçisi Hezha Mohammedxan gənclər arasında sülhün təbliğ olunmasından, fərqliliyin aradan qaldırılması yollarından, nifrət hisslərinin mənfi təsirlərindən söz açıblar. Bildirilib ki, gənclər heç bir zaman nifrətə nifrətlə cavab verməməli, bu hisslərin qurbanı olmamalı, qarşılaşdıqları mənfi hallara öz mövqelərini düzgün şəkildə bildirməli, sosial şəbəkələrdə və sosial mediada bir araya gələrək hər zaman sülhü təbliğ etməlidirlər.

Məruzəçilər dünyada nifrət çıxışlarına qarşı mübarizə yollarından danışıb, bu sahədə həyata keçirdikləri layihələr barədə məlumat veriblər. Vurğulanıb ki, gənclər bütün sahələrdə sülhün bərqərar edilməsində öndə olmalıdırlar.

Çıxış edənlər gənclərə sülh və əmin-amanlıq mədəniyyətinin formalaşmasında tövsiyələrini verib, öz həyat təcrübələrini bölüşüb, dünyada nifrət hisslərinin aradan qaldırılmasında onların fəal iştirakının vacibliyini vurğulayıblar. Qeyd edilib ki, təhsil, idman, incəsənət, mədəniyyət dünyada gəncləri bir araya gətirən əsas vasitələrdəndir. Bakıda keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və müxtəlif mövzularda təşkil olunan sessiyalar böyük əhəmiyyət daşıyır.

Qonaqlar Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlıqlarını bildiriblər.

İclasda mövzu ətrafında fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Forum çərçivəsində “BMT sistemində sülh naminə çoxtərəflilik və diplomatiyanın gücləndirilməsi” mövzusunda sessiya təşkil edilib





**Mayın 3-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “BMT sistemində sülh naminə çoxtərəflilik və diplomatiyanın gücləndirilməsi” mövzusunda sessiya keçirilib.**

AZƏRTAC xəbər verir ki, ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadənin moderatorluğu ilə keçirilən sessiyanın açılışında Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov çıxış edib. Qoşulmama Hərəkatına üzv ölkələrin təşəbbüsü ilə 2018-ci il dekabrın 12-də BMT Baş Assambleyasının “24 aprel - Çoxtərəflilik və sülh naminə diplomatiya Beynəlxalq Günü” adlı qətnaməsinin qəbul edildiyini bildirən nazir bəşəriyyətin davamlı sülh məqsədinə nail olmasında çoxtərəfliliyin əhəmiyyətini vurğulayıb. O, bu qətnamənin həmmüəllifləri sırasında Azərbaycanın da yer aldığını tədbir iştirakçılarının diqqətinə çatdırıb. Nazir bu təşəbbüsün dünyada çoxtərəflilik səylərinin həll edilməmiş münaqişələr, iqlim dəyişikliyi, dözümsüzlük və digər təhdidlərin təsiri altında olduğu bir vaxtda irəli sürüldüyünü vurğulayaraq, çoxtərəfliliyə və beynəlxalq əməkdaşlıq dəyərlərinin qorunub saxlanılmasının BMT-nin mühüm pillələri olan sülh və təhlükəsizlik, inkişaf və insan hüquqlarının təşviqi baxımından vacib rol oynadığını qeyd edib. Nazir çoxtərəfliliyin suveren dövlətlərin təklikdə həll edə bilmədikləri təhlükəsizlik və inkişafa təhdidləri cavablandırmaq imkanını verdiyini və dialoqun davamlı sülhə nail olmaq üçün ən vacib alət olduğunu vurğulayıb.

Elmar Məmmədyarov sülhün müxtəlif təhdidlərlə, xüsusilə həll edilməmiş münaqişələrlə üzləşdiyi dünyada sülh diplomatiyasının əhəmiyyətindən bəhs edib. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi haqqında iştirakçılara məlumat verən nazir Ermənistanın ölkəmizə qarşı həyata keçirdiyi təcavüzkar siyasətə toxunaraq bunun bölgəmizdə davamlı sülhə və inkişafa təhlükə törətdiyini vurğulayıb. Elmar Məmmədyarov regionda davamlı sülhə nail olmaq üçün işğala son qoyulmasının, Azərbaycanın işğal edilmiş ərazilərinin dərhal və qeyd-şərtsiz boşaldılmasının və azərbaycanlı məcburi köçkünlərin öz doğma yurd-yuvalarına geri qayıtmasının vacibliyini diqqətə çatdırıb.

Həmçinin BMT Nizamnaməsinə, Helsinki Yekun Aktına və Qoşulmama Hərəkatının Bandunq prinsiplərinə diqqəti cəlb edən nazir sözügedən sənədlərdə qeyd olunmuş prinsiplərin, xüsusilə beynəlxalq səviyyədə tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünə hörmət prinsipinin vacibliyini bildirib.

UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif Forumun əhəmiyyətindən danışaraq bildirib ki, Prezident İlham Əliyevin açılış mərasimindəki nitqi bizim gələcək fəaliyyətimizin təkmilləşdirilməsi baxımından önəmlidir. O deyib ki, sosial və iqtisadi bərabərsizlik, iqlim dəyişikliyi, zorakılıq - bütün bunlar dünyanın sosial həyatına təhdidlər yaradır. Lakin biz hər zaman dünya ilə bağlı xoş təşəbbüslərlə çıxış edirik. Mövcud problemləri hər hansı dövlət təkbaşına həll edə bilməz. Ona görə də birgə əməkdaşlıq, dialoqdan yaxşı ikinci bir yol yoxdur. “Bakı Prosesi” bu məsələdə istiqamətverici rol oynayır. Davamlı İnkişaf Məqsədlərinin əsas qayəsində də tərəfdaşlıq dayanır.

BMT-nin Baş Assambleyası tərəfindən yaradılmış Sülh Universitetinin rektoru Fransisko Rojas Aravena çıxışında Bakıda təşkil olunan Forumda dünyanı narahat edən problemlərin həlli ilə bağlı səmərəli müzakirələrin aparıldığını vurğulayıb. “Biz Sülh Universiteti olaraq sülhün təbliği, humanitar problemlərə qarşı tədbirlərin təşviqini aparırıq. Qlobal kontekstdə strateji məsələlərin həlli əsas məsələ olmalıdır. Ancaq əməkdaşlıq olmadan sülhə, insan hüquqlarının təmininə nail olmaq mümkün deyil. Müharibələr, böhranlar yalnız və yalnız yoxsulluğa gətirib çıxarır. Çoxtərəflilik hər zaman beynəlxalq münasibətlərdə əsas rola malik olub. BMT sülhü, insan hüquqlarını qorumaq üçün təsis edilib. BMT qlobal sülhü mümkün etdi, sabitlik müəyyən mənada təmin olundu. Bizi narahat edən əsas məsələlərdən biri də qütbləşmələrin yaranmasıdır. Çoxtərəflilik prinsipi müxtəlif təhdidlərə qarşı ola biləcək ən güclü amil kimi çıxış edə bilər. Dövlətlərin müstəqilliyinə, beynəlxalq hüquqa hörmət və digər normalar bizim qorumalı olduğumuz şərtlərdir. Münaqişələrin həlli ilə bağlı danışıqlar anlaşma ruhunda aparılmalıdır.

Açılış çıxışlarından sonra sessiya işini Cenevrədəki BMT Ofisi və digər beynəlxalq təşkilatlar yanında Sülh Universitetinin daimi müşahidəçisi David Fernandez Puyananın moderatorluğu ilə davam etdirib.

Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas bildirib ki, çoxtərəflilik deyəndə ilk olaraq hər kəs BMT-ni düşünür, biz Avropa İttifaqını da unutmamalıyıq. Biz Avropa İttifaqı olaraq sülh, insan hüquqları, əməkdaşlıq, birgəyaşayış, demokratiya kimi dəyərləri fəaliyyətimizdə əsas götürürük. Avropa İttifaqı özü fəaliyyətə bir sülh layihəsi kimi başlayıb və uzun müddətdir ki, sülhü təmin edir. Biz müharibələrdən sülh qitəsinə çevrildiyimizə görə 2012-ci ildə Avropa İttifaqına Nobel sülh mükafatı təqdim olundu. Bu uğurun səbəbi nədir? Birmənalı olaraq əsas səbəb odur ki, üzv ölkələrin hər birinin ortaq maraqları var.

Xarici İşlər Nazirliyinin regional təhlükəsizlik idarəsinin rəisi vəzifələrini icra edən Kamil Xasiyev bildirib ki, BMT Baş Assambleyasının “24 aprel - Çoxtərəflilik və sülh naminə diplomatiya Beynəlxalq Günü” adlı qətnaməsinin qəbulundan sonra Bakıda bu mövzu ətrafında müzakirələrin aparılması olduqca əhəmiyyətlidir. O qeyd edib ki, son illərdə beynəlxalq münasibətlər sistemində çoxtərəflilik prinsipinin önəmi xeyli dərəcədə artıb. Çünki regional sülh və təhlükəsizliyə başqa alternativ yoxdur. Çoxtərəfli diplomatiya konteksti özü də beynəlxalq hüquq tərəfindən tənzimlənir. Lakin biz qəbul etməliyik ki, bu gün beynəlxalq münasibətlər sistemi mükəmməllikdən xeyli uzaqdır. Əgər biz bu sistemin səmərəli olmasını istəyiriksə, BMT-nin üzv ölkələrinin üzərlərinə götürdükləri öhdəliklərə əməl etmələri təmin olunmalıdır.

Səudiyyə Ərəbistanı Krallığının Xarici İşlər Nazirliyinin diplomatiya elmləri üzrə Şahzadə Saud Əl Faysal İnstitutunun baş direktoru Abdullah Həməd Əl-Salamah bu mötəbər tədbirin təşkilinə görə Azərbaycan tərəfinə minnətdarlığımı bildirib. Suriyada baş verənlərin, qaçqınlarla bağlı böhranların ciddi iqtisadi problemlər yaratdığını söyləyən baş direktor qeyd edib ki, hər bir ölkədə insanların təhsil almalarına şərait yaradılmalıdır. Bu gün Çin, Cənubi Koreya kimi ölkələrdə müxtəlif sahələrin inkişafının şahidiyik. Bu gün Cənubi Koreya texnologiyaların inkişafına görə dünyada ön sıralardadır. Dünyanın hər yerində bu ölkələrin texnologiyalarından istifadə edilir. Əlbəttə, bu, ilk növbədə, təhsilə verilən önəm sahəsində əldə olunan uğurlardır. Çünki bu cür ölkələrdə gənclik də inkişaf edir. Təhsilli, maariflənmiş insanlar isə müharibələr deyil, əməkdaşlıqlar haqqında düşünürlər. Onlar başa düşürlər ki, əgər əməkdaşlıq olmasa heç bir inkişafdan söhbət gedə bilməz. Afrikanın bir sıra ölkələrinə baxsaq, görərik ki, işsizlik, yoxsulluq hökm sürür. Ona görə də əməkdaşlıq, diplomatiyanın və dialoqun təbliği olduqca vacibdir.

ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə çıxışında deyib ki, bütün mənfi təzahürlərə, o cümlədən radikalizmə və ekstremizmə qarşı mübarizə aparmaq, qarşılıqlı anlaşmanı təbliğ etmək istəyiriksə, bu istiqamətdə ən yaxşı yol gənclərin təhsilinə sərmayələrin qoyulmasıdır. Həmçinin tələbə mübadiləsi proqramı aparmaq mümkündür ki, bu da qarşılıqlı anlaşmanı, mədəni baryerlərin aradan qaldırılmasını təmin etmiş olarıq. Hesab edirəm ki, insan təhsili olsa onun pis əməllərə meyli azalacaq, yaxşı əməllərə isə artacaq.

Abat Oliba CEU Universitetində UNESCO-nun sülh, həmrəylik və mədəniyyətlərarası dialoq üzrə kafedrasının müdiri Karmen Parra Rodrigez bu cür qlobal əhəmiyyət daşıyan bir mövzu ətrafında müzakirələrin aparılması üçün yaratdığı şəraitə görə Azərbaycan hökumətinə minnətdarlığını ifadə edib. O, çıxışında müxtəlif sahələrdə qurumların bu istiqamətlərdə fəaliyyətə cəlb olunmasının uğurlu ola biləcəyinə inamını ifadə edib. Bildirib ki, UNESCO hər zaman gənclərə bağlı proqramları dəstəkləyir, sülh və mədəniyyətlərarası əməkdaşlıq naminə müxtəlif qurumların əməkdaşlığını təbliğ və təşviq edir.

Banaras Hindu Universitetində UNESCO-nun sülh və mədəniyyətlərarası anlaşma üzrə sədri Priyankar Upadhyaya qeyd edib ki, “24 aprel - Çoxtərəflilik və sülh naminə diplomatiya Beynəlxalq Günü” planetimizin buna ehtiyacının olduğu dövrdə təsis olundu. Biz lazımi addımlar atmalıyıq, çünki gələcəyimiz üçün ciddi təhlükələr var. Bəzən etimadın olmaması ilə bağlı məsələləri müşahidə edirik. Yəni, hökumətlər insanlarla işləmirlər, onlara ciddi vədlər vermirlər. Bəzən verilən vədlər icra edilmir. Bütün bunlar qlobal maliyyə böhranı ilə başladı və hələ də bu məsələlər həll olunmamış qalır. Həmçinin miqrasiya problemi də qloballaşan dünyanın əsas problemidir. Bu gün dünyada aclığa, səfalətə düçar olan insanların sayı artıb. Hesab edirəm, ölkələr birgə əməkdaşlıqla bu problemlərdən çıxış yolunu tapmalıdırlar. Ən yaxşı yol isə beynəlxalq təşkilatlarla birgə işin genişləndirilməsidir. Çoxtərəflilik prinsipinə sadiqlik olmalıdır. Yanaşma olaraq multikulturalizmdən gözəl nümunə yoxdur. Təhsil, maariflənmə isə insanları pis əməllərdən çəkindirmək üçün çox gözəl seçimdir. Biz bundan da səmərəli istifadə etməliyik. Onlara aşılamalıyıq ki, planet bizim əsas evimizdir.

Sonda sessiya iştirakçılarının sualları cavablandırılıb.

**AZƏRTAC**

# Forumun daha bir sessiyası gənclərin məşğulluğu və peşə təhsili mövzusuna həsr edilib



**Mayın 3-də V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən növbəti sessiyada “Gənclərin məşğulluğu və peşə təhsili: ayrı-seçkilik və bərabərsizlik əleyhinə innovativ yanaşmalar” mövzusunda geniş müzakirələr aparılıb.**

AZƏRTAC xəbər verir ki, sessiyanın moderatoru, BMT-nin Terrorla Mübarizə İdarəsinin aparat rəhbəri Sevil Əlirzayeva təmsil etdiyi qurumun gənclərin peşə təhsili və innovativ yanaşmalara münasibəti istiqamətində həyata keçirdiyi layihələrdən danışıb. Qeyd edib ki, BMT-nin Terrorla Mübarizə İdarəsi tərəfdaş dövlətlərlə birgə iş aparır.

Gənclərin məşğulluğu ilə bağlı reallaşan bütün proqramlarda təbliğat üçün medianın rolundan da istifadə olunmasının vacibliyini vurğulayan natiq deyib ki, gənclər cəmiyyətin fəal üzvləri olmaqla yanaşı, həm də daha çox xarici təsirlərə məruz qala bilən hissəsidir. Gənclərin maarifləndirilməsində onların ekstremist təsirlərdən qorunması üçün mənimsədikləri elmi biliklər xüsusi əhəmiyyət kəsb edir. Bu, həm onların məşğulluğunun təmin olunması, həm də terrorla mübarizə istiqamətində vacib məqamlardan biridir.

O vurğulayıb ki, BMT-nin Terrorla Mübarizə İdarəsi gənclərin məşğulluğunun təmin olunması, eləcə də ayrı-seçkiliyə, terrora qarşı mübarizə istiqamətində qlobal və regional layihələr həyata keçirmək üçün tərəfdaş ölkələrlə mütəmadi əməkdaşlıq edir.

Azərbaycan Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov ölkəmizdə gənclər siyasətinin həyata keçirilməsi istiqamətində görülən işlərdən danışıb. Dünyada ksenofobiya və ayrı-seçkiliyin geniş yayıldığına diqqət çəkən F.Cəfərov ölkəmizdə hər zaman tolerantlığa, multikultural dəyərlərə hörmətlə yanaşıldığını deyib.

“Azərbaycan terroru yaşamış ölkədir. Biz bunun nə olduğunu çox yaxşı bilirik. Torpaqlarımızın Ermənistan tərəfindən işğalı ilə yanaşı, ölkəmizdə bu dövlət tərəfindən bir neçə dəfə terror aktı törədilib. Biz terroru hər vəchlə pisləyirik və ona qarşı mübarizənin bütün üsullarını dəstəkləyirik”, - deyə icraçı direktor bildirib. O əlavə edib ki, rəhbəri olduğu qurum gənclərin maarifləndirilməsi və onlarla bağlı dövlət proqramlarının icrasında yaxından iştirak edir.

Daha sonra UNESCO-nın Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif, BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsinin kabinet rəhbəri və sözçüsü Nihal Saad mövzu ilə bağlı fikirlərini bildiriblər. Onlar dünyada gənclərin peşə təhsilinin inkişafı və terrorizmlə mübarizə baxımından belə forumların əhəmiyyətini qeyd ediblər.

Daha sonra sessiya ekspertlər paneli ilə interaktiv dialoq şəklində davam edib.

**AZƏRTAC**

# Forum çərçivəsində bərabər vətəndaşlıq hüquqlarının dəstəklənməsi mövzusunda müzakirələr aparılıb






**Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən sessiyalardan biri də “Bərabər vətəndaşlıq hüquqlarının dəstəklənməsi üçün daha böyük mənəvi yaxınlaşma istiqamətində irəliləyək” mövzusuna həsr edilib.**

AZƏRTAC xəbər verir ki, sessiyaya moderatorluq edən İnsan Hüquqlarının İnkişafı və Qlobal Dialoq üzrə Cenevrə Mərkəzinin icraçı direktoru İdris Cəzairi qeyd edib ki, bərabər vətəndaşlıq hüquqları aktuallıq kəsb edir. BMT-nin Baş katibi bu məsələyə xüsusi diqqət yetirir.

Sessiyada çıxış edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov deyib ki, ölkəmizdə dinindən və irqindən asılı olmayaraq hər kəsin hüquqları bərabər qorunur. Azərbaycanda hüquqla yanaşı, insanların haqları mənəvi baxımdan da qorunur. 2017-ci ildə Azərbaycan Prezidentinin Fərmanı ilə yaradılmış Mənəvi Dəyərlərin Təbliği Fondu Azərbaycanda yaşayan bütün dinlərin və millətlərin mənəviyyatlarının qorunması, o cümlədən təbliği üçün nəzərdə tutulub.

Anna Lind Fondunun icraçı direktoru səfir Nabil Əl-Şərif bildirib ki, rəhbərlik etdiyi qurum 2005-ci ildən fəaliyyət göstərir. Fondun 42 ölkəni əhatə etdiyini deyən Nabil Əl-Şərif qeyd edib ki, qurum 2500 vətəndaş cəmiyyəti təşkilatı ilə əməkdaşlıq şəraitində fəaliyyət göstərir.

İcraçı direktor deyib ki, bəzən dini zəmində münaqişələr mətbuatda insanların fikirləri düzgün verilmədiyi üçün yaranır. Lakin Fondun keçirdiyi sorğulardan məlum olur ki, insanlar bir-birilərinə qarşı müsbət fikirdədirlər. Fondun əsas fəaliyyət prinsiplərindən birinin də gənclərlə işləmək olduğunu deyən səfir əlavə edib ki, gənclər ekstremist qüvvələrin təsirinə daha tez düşür. Bu səbəbdən onların qorunmasına daha çox ehtiyac var.

Siyasət, Vəkillik və İdarəetmə İnstitutunun sədri Syed Munir Khasru qeyd edib ki, bəzi dövlətlər bərbərlik məsələsində tədbirləri gücləndirib. Həmin dövlətlər miqrantlara, azlıqlara qarşı dəstəklərini artırıblar. Lakin dünyanın böyük dövlətləri bəzən bu bərabərliyi pozur.

Syed Munir Khasru bildirib ki, dünyada belə bir fikir var ki, guya müsəlman ölkələrində bərabərliklə bağlı iş görülmür. Azərbaycanın nümunəsi bu cür fikirlərin tamamilə yalan olduğunu sübut edir. Bu ölkədə fərqli dinlərin və mədəniyyətlərin nümayəndələri sərbəst yaşayırlar.

BMT-nin din və inkişaf üzrə müəssisələrarası işçi qrupunun koordinatoru və Əhali Fondunun baş məsləhətçisi Azza Kərəm bildirib ki, Azərbaycan hökuməti bu cür önəmli məsələlərin müzakirəsi üçün geniş dialoq platforması yaradıb. Müzakirəsi aparılan məsələlərin əksəriyyəti bu gün dünyanı narahat edən problemlərdir. Bəzi ölkələrdə nəinki vətəndaşlıq bərabərliyi problemi var, həmin ölkələrdə insanların hüquqları belə yoxdur. Ona görə də bu məsələnin müzakirəsi olduqca təqdirəlayiqdir.

Dünya Kilsələr Şurasının Dinlərarası dialoq üzrə proqram icraçısı Peniel Rackumar qeyd edib ki, dünyada geniş yayılan ksenofobiya və terrora qarşı birgə mübarizəni gücləndirmək lazımdır. Bu problemin kökündə qeyri-bərabərlik durur. Bu sahədə dialoqun təşkili siyasətçilərlə yanaşı, dini icmaların da üzərinə məsuliyyət qoyur.

Peniel Rackumar bildirib ki, fərqli dinlərdən olan insanların fikirləri bəzən təhrif olunur, bu da münaqişələrin yaranmasına yol açır.

Sessiya müzakirələrlə davam edib.

**AZƏRTAC**

# Sülh demokratiyanın, insan hüquqlarının, qanunun aliliyinin təminində əsas hərəkətverici qüvvələrdən biridir



**Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən sessiyada “İnsan hüquqları, demokratiya və hüququn aliliyinin universallığı və mədəniyyətlərarası səciyyəsi” mövzusunda müzakirələr aparılıb.**

AZƏRTAC xəbər verir ki, sessiya Avropa Şurasının Şimal-Cənub Mərkəzinin İcraiyyə Komitəsinin sədri, İspaniyanın Avropa Şurası yanında daimi nümayəndəsi səfir Manuel Montobbionun sədrliyi ilə keçib. O, qloballaşma əsri olduğunu, multikulturalizmin qlobal səviyyədə idarə edilməsinin, universallığa nail olmağın vacibliyini qeyd edib. M.Montobbio demokratiyanın insan hüquqlarının təmin edilməsində və çoxluğun idarə edilməsində mühüm əhəmiyyət kəsb etdiyini bildirib.

Şərqi Timor Demokratik Respublikasının keçmiş Prezidenti, Şimal-Cənub Mükafatının laureatı (2002) Şanana Qusmao ayrı-seçkiliyin, bərabərsizliyin qarşısını almaq üçün insanların düşüncələrini dəyişməli olduğunu deyib. O, sülhün demokratiyanın, insan hüquqlarının, qanunun aliliyinin universallığının təmin edilməsində əsas hərəkətverici qüvvələrdən biri olduğunu diqqətə çatdırıb. Azərbaycanda ilk dəfə olduğunu deyən Ş.Qusmao ölkəmizdə sülhün, sabitliyin, multikultural dəyərlərin bərqərar edilməsinin digər ölkələrə nümunə ola biləcəyini vurğulayıb.

“METAdrasi - Miqrasiya və İnkişaf Fəaliyyəti”nin təsisçisi, Şimal-Cənub mükafatı laureatı Laura Papa bir sıra ölkələrdə münaqişələrin baş verdiyini, milyonlarla insanın öz vətənindən didərgin düşdüyünü deyib. O bildirib ki, 2015-ci ildən etibarən Yunanıstan 1 milyona yaxın qaçqın qəbul edib. “Dünyada insanlıq mədəniyyətinin olması vacibdir. Çox təəssüf ki, hələ də irqi, gender ayrı-seçkilikləri mövcuddur. Dünyada sivil cəmiyyətin qurulmasına cəhd göstərməli, maneələri aradan qaldırmalıyıq. Demokratiya dövləti güclü edir. Hüquqların aliliyi demokratiya ilə sıx bağlıdır. İnsanlar öz hüquqlarından yararlana bilməli, azad yaşamalıdırlar”, - deyə o bildirib.

Qlobal təhsilin təbliğatı və pedaqoji dəstək üzrə ekspert Karmen Fişer deyib: “İnsanlar nədənsə özlərindən fərqli olanlardan qorxurlar. Bu isə mədəniyyətlərarası dialoqların qurulmasına mane olur. Nəticədə ayrı-seçkilik, bərabərsizlik, böhranlar baş verir. İnsanların demokratiyaya inamını geri qaytarmaq üçün qanunun, hüququn aliliyi bərpa edilməlidir”.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov multikulturalizmin demokratiyanın əsaslarından biri olduğunu vurğulayıb: “Hər bir xalqa, milli azlıqlara öz adət-ənənələrini, mədəni xüsusiyyətlərini, həyat tərzlərini qoruyub saxlamağa imkan vermək lazımdır. Müxtəlifliyi qəbul etmək vacibdir. Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Ölkəmizdə multikulturalizmin siyasi əsasları Azərbaycan Respublikası Konstitusiyasında, qanunvericilik aktlarında, fərman və sərəncamlarda öz əksini tapıb. Bu gün multikulturalizmin alternativi yoxdur və mənəvi dəyərlər baxımından ölkəmizin bu sahədə liderə çevrilməsi və dünya xalqları üçün əvəzsiz nümunə kimi qəbul olunması qürurvericidir”.

Rəvan Həsənov Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasında əsas məqsədin ölkəmizin multikulturalizm ənənələrinin öyrənilməsi, bu sahədə dünya təcrübəsinin araşdırılması və Azərbaycan modelinin bütün dünyada təbliğinin həyata keçirilməsi olduğunu diqqətə çatdırıb.

“Cultural İnfusion”nın Baş icraçı rəhbəri və təsisçisi Peter Mousaferiadis ayrı-seçkiliyin aradan qaldırılmasında, insanların öz hüquqlarını bilməsində təhsilin önəmli olduğunu bildirib. O, Forumun bərabərsizlik, zorakılıq, insan hüquqlarının pozulması kimi mənfi hallara qarşı mübarizəyə töhfə verəcəyinə ümid etdiyini diqqətə çatdırıb. Azərbaycanda olmaqdan məmnunluğunu ifadə edən Peter Mousaferiadis dəvətə görə minnətdarlığını bildirib.

**AZƏRTAC**

*Maykl Hardi:*

# V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu “Bakı Prosesi”nin çox önəmli tərkib hissəsidir

Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu “Bakı Prosesi”nin çox önəmli tərkib hissəsidir. Azərbaycan Prezidenti tərəfindən 2008-ci ildə irəli sürülən “Bakı Prosesi” uğurlu təşəbbüsdür və artıq 11 il ərzində bu proses dünyada baş verən aktual məsələlərin həlli yolunda müzakirələr üçün əvəzolunmaz platformadır. Bütün bunların nəticəsində dünya ictimaiyyəti müxtəlif sahələrdə mövcud problemləri, onların həlli istiqamətində görülən işləri daha yaxşı dərk edir. Bu illər ərzində biz bir çox görüşlər keçirmişik, beynəlxalq təşkilatların nümayəndələri, mütəxəssislər dünyada qarşılaşdıqları çətinliklərlə bağlı fikirlərini bölüşür və dünyada sülhün bərqərar olması məqsədilə mövcud problemlərin həll yollarını axtarırlar.

AZƏRTAC xəbər verir ki, bu fikirləri “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında Bakıda keçirilən V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun iştirakçısı, “Bakı Prosesi”nin və Ümumdünya Mədəniyyətlərarası Dialoq forumlarının akademik məsləhətçisi, Böyük Britaniyanın Koventri Universitetinin Etimad, Sülh və Sosial Münasibətlər Mərkəzinin icraçı direktoru, professor Maykl Hardi deyib.

“Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində insanlar arasında həmrəylik yaratmaqda və müxtəlif icmalarda zorakılığa və ayrı-seçkiliyə qarşı mübarizədə mədəniyyətlərarası dialoqun mühüm rolu müzakirə olunur”, - deyə professor Maykl Hardi əlavə edib.

**AZƏRTAC**

# Forumun üçüncü plenar sessiyası “Miqrasiya, yerdəyişmə və insan təhlükəsizliyi” mövzusunda olub

**Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun ikinci günündə keçirilən üçüncü plenar sessiya “Miqrasiya, yerdəyişmə və insan təhlükəsizliyi” mövzusuna həsr olunub.**





AZƏRTAC xəbər verir ki, sessiyanın moderatoru Koventri Universitetinin Sülh, Etimad və Sosial Münasibətlər Mərkəzinin direktoru, professor Maykl Hardi müasir dövrdə miqrasiyanın qlobal miqyaslı prosesə çevrildiyini vurğulayıb. O qeyd edib ki, miqrantlar və mühacirlər köç etdikləri cəmiyyətlərə yeni ideya və düşüncələrin daşıyıcıları olmaları baxımından müsbət bir funksiya həyata keçirirlər. Buna görə də mədəniyyətlərarası dialoq prosesində miqrasiya müsbət bir tendensiya kimi də nəzərdən keçirilməlidir.

Tədbirdə əsas məruzəçi qismində çıxış edən Monteneqronun daxili işlər naziri Mevludin Nuhodziç ölkəsində miqrasiya proseslərinin nizamlanması istiqamətində görülən işlərdən danışıb. Bildirib ki, Monteneqro bu prosesləri təkcə siyasi və iqtisadi baxımdan deyil, sosial münasibətlər kontekstində də nəzərdən keçirməyə çalışır. Biz miqrasiya proseslərində əsas diqqəti təhlükəsizliyin təmin olunması ilə yanaşı, insan hüquqlarının qorunmasına yönəldirik. Bu məqsədlə ölkədə bütün insanların, o cümlədən əcnəbilərin hüquqlarının müdafiəsini nəzərdə tutan qanun qəbul olunub. Bu, Monteneqronun inklüziv cəmiyyətin qurulması istiqamətində qəti niyyətini əks etdirir. Bu addım, eyni zamanda, Monteneqroda tarixən mövcud olmuş tolerantlıq ənənələrinin göstəricisidir. Təcrübəmiz göstərir ki, tələbələr və gənclər yerli əhali ilə miqrantlar arasında ən səmərəli körpü rolunu oynayır. Bu da gənclərin miqrasiya proseslərinin nizamlanmasında rolunu artırır.

Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov miqrasiyanın müasir dövrdə ən çox müzakirə edilən aktual məsələlərdən biri olduğunu vurğulayıb. Bildirib ki, hazırda dünyada heç vaxt olmadığı qədər miqrant və qaçqın var. Münaqişələrin artması, inkişaf meyilləri miqrasiya proseslərinin aktuallığını daha da artırır. Miqrasiya fərqli ideyaların, müxtəlif mədəniyyətlərin nümunələrinin yeni cəmiyyətlərə gətirilməsi baxımından müsbət funksiya yerinə yetirir.

Müxtəlif siyasi dairələrdə miqrasiyaya aid fərqli yanaşmaların olduğunu deyən V.Hüseynov bildirib ki, miqrasiya prosesinin tənzimlənməsi üzrə nəzərdə tutulan ehtiyatların əksər hissəsi çox vaxt əsasən hüquq-mühafizə orqanlarına, qeyri-leqal miqrasiyaya ayrıldığı üçün bu sahədə işlərin tənzimlənməsində maneələr yaranır.

Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan ərazilərinin işğal olunduğunu, yüz minlərlə soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyini deyən V.Hüseynov vurğulayıb ki, Azərbaycan adambaşına düşən qaçqın və məcburi köçkünün sayına görə dünyada birincidir. Nüfuzlu mötəbər təşkilatlar bu münaqişənin həlli, doğma yurdlarından didərgin düşmüş insanların geri qayıtması ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul etsələr də, bu sənədlərin tələbləri yerinə yetirilmir.

Azərbaycanın miqrasiya sahəsində bütün beynəlxalq konvensiyalara qoşulduğunu, ölkəmizdə bu sahədə mükəmməl qanunvericilik və institusional bazanın yaradıldığını vurğulayan Xidmət rəisi edib ki, respublikamızda miqrantlar üçün çox gözəl şərait yaradılıb. Miqrantlar Azərbaycanın daimi məskunlaşmaq üçün əlverişli məkan olduğunu qeyd edirlər. Miqrasiyanın transsərhəd problemi olduğunu deyən Xidmət rəisi mühüm məsələlərin müzakirə olunduğu Forumun bu sahədə çətinliklərin həllinə böyük töhfə verəcəyinə əminliyini bildirib.

İtaliya parlamentinin üzvü Maurizio Lupi bildirib ki, qlobal miqyas alan miqrasiya prosesini təkcə bir ölkə idarə edə bilməz. Miqrasiya prosesində təyinat ölkələrini narahat edən məsələ öz qapılarını kimin üzünə açdıqlarını bilməmələridir. Buna görə də təyinat ölkələri, o cümlədən Avropa dövlətləri bu prosesdə son dərəcə ehtiyatlı davranırlar. Lakin unutmaq olmaz ki, miqrasiyaya problem yaradan deyil, bütünləşdirici amil kimi baxmalıyıq.

Türkiyənin Mərmərə Qrupu Strateji Araşdırmalar Vəqfinin prezidenti, professor Akkan Suver qardaş ölkədə miqrasiya sahəsində görülən işlərdən danışıb. Müasir dünyada münaqişələrin və böhranların tarixdə əvvəllər olmadığı qədər qaçqın və miqrant böhranına səbəb olduğunu vurğulayan A.Suver deyib ki, bu gün dünyada ən çox qaçqın qəbul edən ölkə Türkiyədir. Rəsmi məlumatlara əsasən, Türkiyə 3 milyon suriyalı ilə yanaşı, digər ölkələrdən də 400 min insan qəbul edib. Ölkəsində qaçqınların sayının yerli əhalinin sayı ilə bərabər olduğu vilayətlərdə sosial problemlərin gələcəkdə ciddi böhranlara səbəb ola biləcəyini vurğulayan A.Suver bu baxımdan Qərb dövlətlərinin Türkiyə qarşısında götürdüyü öhdəliklərin yerinə yetirilməsinin vacibliyini vurğulayıb. Bildirib ki, miqrantların yeni cəmiyyətlərə uyğunlaşmağa müqavimət göstərmələri ksenofobiya hallarının artmasına səbəb olur. Bu isə gələcəkdə daha ciddi problemlər yaradacaq.

A.Suver bildirib ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində bir milyondan çox insan qaçqın və məcburi köçkünə çevrilib. Dünya ictimaiyyəti bu ədalətsizliyə qəti fikir bildirməlidir.

Afrika Miqrasiya və İnkişaf Siyasəti Mərkəzində Tədqiqat və Məlumat Mərkəzinin direktoru xanım Linda Ouço miqrasiyanın davamlı və fasiləsiz problem olduğunu diqqətə çatdırıb. Bildirib ki, miqrasiyanın əsas səbəbi siyasi proseslərdir. Miqrasiyanın müsbət tərəflərini də vurğulayan L.Ouça ölkəsi Keniyada qaçqınların qəbulu və onların hüquqlarının təminatı sahəsində görülən işlərdən danışıb. Bildirib ki, miqrasiya inkişaf üçün zəruri amildir. Bu baxımdan miqrantların bilik və bacarıqlarından, onların imkanlarından, yeni ideya və təşəbbüslərindən nə dərəcədə istifadə olunması mühüm əhəmiyyət daşıyır.

Koventri Universitetinin Cənub-Cənub Miqrasiya, Bərabərsizlik və İnkişaf Qlobal layihəsinin rəhbəri xanım Heven Kroli miqrasiyanın müsbət tərəflərindən bəhs edib. Miqrasiyanın bir sıra iqtisadi və sosial imkanlar yaratdığını qeyd edən H.Kroli deyib ki, 1970-ci illərdə miqrasiya əsasən orta gəlirli ölkələrdən inkişaf etmiş ölkələrə istiqamətlənmişdi. Nəticədə bu, böyük investisiya axını ilə nəticələnmişdi. Lakin müasir dövrdə miqrasiyaya təsir edən amillər və ona yanaşmalar əhəmiyyətli dərəcədə dəyişib. Bu, müxtəlif regionlarda özünü fərqli şəkildə büruzə verir. Avropa ölkələri miqrantlarla bağlı daha çox narahatlıq keçirirlər. Miqrasiyanın inkişafına ölkələr arasındakı bərabərsizliklərin və siyasi münaqişələrin daha çox təsir etdiyini deyən H.Kroli bildirib ki, bu prosesin qarşısını almaq üçün sosial bərabərsizliklər aradan qaldırılmalı, hər kəs üçün bərabər imkanlar yaradılmalı, beynəlxalq əməkdaşlıq gücləndirilməlidir.

Daxili Yerdəyişmənin Monitorinqi Mərkəzinin direktoru xanım Aleksandra Bilak çıxışında hazırda dünyada 65 miqrantın olduğunu bildirib. Qeyd edib ki, onların 25 milyonu qaçqınlardır. Münaqişələrlə yanaşı, təbii fəlakətlərin də miqrasiya proseslərinə mühüm təkan verdiyini deyən A.Bilak bildirib ki, hər il orta hesabla 25 min insan təbii fəlakətlər nəticəsində yaşayış yerlərini dəyişir.

Bundan başqa, münaqişələr nəticəsində doğma yerlərindən didərgin düşən insanlar uzun müddət öz yurdlarına qayıda bilmirlər. Məsələn, Azərbaycanda 27 ildir məcburi köçkünlər doğma yurdlarına qayıda bilmirlər. Bu, onu göstərir ki, münaqişələrin nəticəsində yaranan miqrasiyanın təsirləri daha qalıcıdır. Buna görə də miqrasiyanın tənzimlənməsi və onun ağır nəticələrinin aradan qaldırılması üçün əməkdaşlıq gücləndirilməli, mütəmadi müzakirələr aparılmalıdır. Məhz bu baxımdan Bakı Forumu mühüm bir missiyanı yerinə yetirir.

Çıxışlardan sonra sessiya iştirakçılarının sualları cavablandırılıb və müzakirələr aparılıb.

**AZƏRTAC**

# Türkdilli ölkələr arasında dialoqun qurulmasında böyük İpək Yolunun rolu məsələsi müzakirə edilib

**Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində keçirilən sessiyalardan biri də “Türkdilli ölkələr arasında dialoqun qurulmasında böyük İpək Yolunun rolu” mövzusunda olub.**



AZƏRTAC xəbər verir ki, sessiyada çıxış edən Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva Forumda müxtəlif ölkələrdən alimlərin, mədəniyyət və elm xadimlərinin, siyasətçilərin səmərəli müzakirələr apardıqlarını bildirib.

Sessiyanın önəmli bir mövzuya həsr edildiyini bildirən G.Əfəndiyeva qeyd edib ki, əsrlərboyu böyük İpək Yolu sadəcə dəyərli əşyalar gətirən karvanlar üçün bir yol deyil, həm də mədəniyyət, fikir mübadiləsi üçün bir vasitə olub. Bu mövzu elə indi də öz aktuallığını qoruyub saxlayır. Çünki tarixboyu ticarət və mədəniyyət, eləcə də ünsiyyətin artımı üçün xidmət edən İpək Yolu yenidən canlanır. Uzaq Çindən Orta Asiya ölkələrinədək, Anadolu və Aralıq dənizi üzərindən Avropaya uzanan, Şərqlə Qərbi birləşdirən bu möhtəşəm yol həm də xalqları birləşdirir. Böyük İpək Yolu həmişə türkdilli xalqları bir araya gətirən mədəni, tarixi əlaqələrdən biri olub. Buna səbəb onun iqtisadi əhəmiyyəti ilə yanaşı, mədəni-ticari prosesləri idi. Tacirlər bu böyük materiklər üzərində hərəkət edərkən sadəcə əşya, geyim, nadir incəsənət nümunələri daşımayıblar. Onlar, həmçinin mədəniyyəti, dili, dini ayinləri, adət-ənənələri, fərqli mətbəxləri və daha bir çox atributları daşıyıblar. Bir sözlə, qədim İpək Yolu tolerantlığın, humanizmin, mərhəmətin əsas vasitəçilərindəndir.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun fəaliyyəti, həyata keçirdiyi layihələr barədə məlumat verən G.Əfəndiyeva qeyd edib ki, Fondun mühüm layihələrindən biri olan “Azərbaycan İpək Yolu üzərində” adlı kitab artıq hazırlanıb və yaxın vaxtlarda çap olunacaq. O, Fondun türk dünyasının birgə tarixi-mədəni irsinin təbliğinə yönəldilmiş digər fəaliyyətlərə də dəstək olduğunu söyləyib.

Mədəniyyət naziri Əbülfəs Qarayev çıxışında İpək Yolu üstündə yerləşən ölkələr içərisində tarixboyu Asiya ilə Avropanın iqtisadi, mədəni cəhətdən əlaqələndirilməsi sahəsində mühüm rol oynayan Azərbaycanın bu gün də həmin missiyanı dostluq, sülh, işgüzar vasitələrlə həyata keçirdiyini vurğulayıb. İpək Yolu müəyyən bir dövrdə rəmzə çevrilib, Avropa ilə Asiyanı, həmçinin bu yol üzərində yaşayan müxtəlif xalqları birləşdirən körpü rolunu oynayıb. Körpünün qurulmasında, mədəniyyətlərin mübadiləsində hansı xalqların əsas yer tutmasından danışsaq, görərik ki, böyük İpək Yolu üzərində yerləşən türk mədəniyyəti mühüm yer tutur.

AMEA-nın Şərqşünaslıq İnstitutunun direktor müavini, akademik Şahin Mustafayev diqqətə çatdırıb ki, türk xalqlarının mədəniyyətinin ortaq cəhətlərindən biri onların tarixən böyük İpək Yolu gerçəkliyi ilə sıx şəkildə bağlı olmasıdır. “Bizim etnomədəni dəyərlərimizin, dilimizin geniş coğrafi məkanda yayılması və inkişafında İpək Yolunun müstəsna yeri və rolu var. Bu baxımdan, İpək Yolu hamımızın ortaq mədəni mirasımızdır. Bu mirasın öyrənilməsi, yeni nəsillərə çatdırılması müştərək işimiz və vəzifəmizdir”, - deyə o vurğulayıb.

Tədbirdə Türk Şurasının baş katibinin müavini Qismət Gözəlov, TÜRKSOY-un baş katibi Düsen Kaseinov, İslam Tarixi, İncəsənəti və Mədəniyyəti Araşdırma Mərkəzinin (İRCİCA) baş direktoru Halit Eren, Macarıstan adına Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının səfiri, türkoloq Janos Hovari, UNESCO-nun Türkiyə Milli Komissiyasının sədri Mehmet Öcal Oğuz, Moldova Milli Komissiyasının UNESCO üzrə baş katibinin müavini Luminita Drumea, Avrasiya Yazarları Birliyinin sədri Yakub Ömeroğlu, yazıçı Kemal Salli, macar türkoloq Cecilia Hazai, “Murad Adci” saytının baş redaktoru Marina Kuriachaia-Adci və başqaları türkdilli ölkələrin müxtəlif sahələr üzrə əməkdaşlığından və böyük İpək Yolunun xalqlar arasında dialoqun qurulmasında və qarşılıqlı əlaqələrin gücləndirilməsində rolundan bəhs ediblər.

Sonda Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən bir qrup şəxs mükafatlandırılıb.

**AZƏRTAC**

# Forum çərçivəsində “UNESCO üzrə Milli komissiyaların mədəniyyətlərarası dialoqun təşviqində rolu” mövzusunda sessiya keçirilib

**Mayın 3-də Beşinci Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu çərçivəsində “UNESCO üzrə Milli komissiyaların mədəniyyətlərarası dialoqun təşviqində rolu” mövzusunda növbəti sessiya keçirilib.**



AZƏRTAC xəbər verir ki, sessiyanın açılışında Xarici İşlər Nazirliyinin xüsusi tapşırıqlar üzrə səfiri, UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının baş katibi Elnur Sultanov çıxış edərək ölkəmizin dünyada artan nüfuzundan, beynəlxalq əlaqələrindən, xüsusilə də beynəlxalq təşkilatlardakı mövqeyindən danışıb. O qeyd edib ki, Azərbaycan 27 ildir UNESCO ilə əməkdaşlıq edir. Bu əməkdaşlığın daha da inkişafında və genişlənməsində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xüsusi töhfələri qeyd olunmalıdır.

Baş katib UNESCO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılma tarixindən və fəaliyyətindən danışıb. Bildirib ki, Komissiya 1994-cü ildə Prezident Heydər Əliyevin müvafiq Sərəncamı ilə yaradılıb. Həmin Sərəncamla Milli Komissiya Xarici İşlər Nazirliyi yanında fəaliyyətə başlayıb. Bu il Milli Komissiyanın yaradılmasının 25 illiyi qeyd olunur. 2005-ci il sentyabrın 15-dən isə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamına uyğun olaraq, Milli Komissiya Azərbaycan Respublikasının Prezidenti yanında statusu ilə fəaliyyətini davam etdirir. Dövlət başçısının 2018-ci il 29 avqust tarixli Sərəncamı ilə Milli Komissiyanın yeni tərkibi təsdiq olunub. Hazırda Komissiyanın 17 üzvü var. Milli Komissiyanın iclaslarında cari fəaliyyət və gələcək planlar ətrafında fikir mübadiləsi aparılır.

E.Sultanov deyib ki, UNESCO dünyada yeganə təşkilatdır ki, onun Milli komissiyaları var. Bu, böyük bir ailə şəbəkəsidir. Milli komissiyalar müxtəlif regional və qlobal tədbirlərin keçirilməsində xüsusi rol oynayır. Azərbaycan Milli Komissiyası da bu istiqamətdə UNESCO-nun layihələrində fəal iştirak edir.

Baş katib Azərbaycandakı multikultural, tolerant mühit barədə də məlumat verərək, müxtəlif dinlərin, millətlərin nümayəndələrinin ölkəmizdə sülh şəraitində yaşadığını qeyd edib, bunun mədəniyyətlərarası dialoqun qurulması üçün əsas olduğunu vurğulayıb.

UNESCO-nun baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif Bakıya ilk səfərini 1996-cı ildə etdiyini bildirib və o vaxtdan indiyədək Azərbaycanda baş vermiş inkişafın təkcə iqtisadiyyat və infrastruktur sahələrində deyil, mədəniyyət sahəsində də özünü göstərdiyini vurğulayıb.

Nada Al-Naşif UNESCO üzrə Azərbaycan Milli Komissiyasının fəaliyyətini yüksək dəyərləndirib. Bildirib ki, Milli komissiyalar həm əlaqələndirici, həm də regional icraçı rolunu oynayır. UNESCO Milli komissiyaların müştərək səyləri nəticəsində dünyada bir çox çağırışlara cavab verir.

Baş direktorun müavini 11 il əvvəl Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü ilə başlayan “Bakı Prosesi”nin mədəniyyətlərarası dialoqun inkişafında rolunu qeyd edib.

Sessiyanın moderatoru olan UNESCO-nun mədəniyyətlərarası dialoq şöbəsinin müdiri Ann-Belinda Preis Azərbaycan hökuməti tərəfindən builki Foruma dinlərarası və mədəniyyətlərarası dialoq sahəsində çoxsaylı peşəkar mütəxəssislərin və ekspertlərin dəvət edilməsinin təqdirəlayiq olduğunu deyib.

Ann-Belinda Preis bildirib ki, BMT və UNESCO dünyada baş verən zorakılıq hallarının aradan qaldırılması, hərbi, etnik zəmində münaqişələr və digər problemlərin həlli üçün qarşısına məqsədlər qoyur.

UNESCO üzrə Türkiyə Milli Komissiyasının üzvü Mehmet Öcal Oğuz bildirib ki, UNESCO-nun əsas fəaliyyəti müharibə edən deyil, səmərəli fəaliyyəti ilə fərqlənən, sülh üçün çalışan insanlar arasında coğrafi mədəniyyəti artırmaqdır.

TÜRKSOY-un Baş katibi Düsen Kaseinov UNESCO üzrə milli komissiyaların və təşkilat yanındakı daimi nümayəndəliklərin türkdilli dövlətlərin qurumları ilə əməkdaşlığının genişləndirilməsinin zəruriliyini vurğulayıb. O, dünyada sülhün və bərabərliyin, qarşılıqlı etimadın, anlaşmanın əldə olunmasında bu Forumun mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Özbəkistan Milli Komissiyasının baş katibi Alişer İkramov mədəniyyətlərarası dialoqun inkişafında gənclərin rolunu vurğulayıb. O bildirib ki, bu işlərdə gənclərin səfərbərliyi mühüm əhəmiyyətə malikdir.

Koreya Milli Komissiyasının nümayəndəsi Kvi-Bae Kim təmsil etdiyi qurumun fəaliyyəti və gördüyü işlər barədə məlumat verib. O, UNESCO üzrə Milli komissiyalarının mədəniyyətlərarası dialoqun inkişafına töhfələrindən söz açıb.

AMEA Şərqşünaslıq İnstitutunun direktor müavini, akademik Şahin Mustafayev bildirib ki, elm qapalı mühitdə inkişaf edə bilməz, onun tərəqqisi üçün beynəlxalq elmi mühitə inteqrasiya zəruridir. Akademik mədəniyyətlərarası dialoqun inkişafına töhfə verən layihələrin əhəmiyyətindən danışıb.

Sessiya müzakirələrlə davam edib.

**AZƏRTAC**

# V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu başa çatıb





**Bakıda “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” şüarı altında təşkil olunmuş V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu mayın 3-də başa çatıb.**

AZƏRTAC xəbər verir ki, Böyük Britaniyanın Koventri Universitetinin İnam, Sülh və Sosial Əlaqələr Mərkəzinin icraçı direktoru, professor Mayk Hardi Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə minnətdarlığını bildirib.

Tədbirin əhəmiyyətindən danışan alim deyib: “Forumun çox zəngin proqramı var. İki gün ərzində bizim müzakirə etdiyimiz məsələlər beynəlxalq əməkdaşlıq baxımından çox önəmli idi. Aparılan müzakirələr bizi yenidən bu məsələləri nəzərdən keçirməyə vadar edir. Dialoq çox önəmlidir. “Bakı Prosesi” bir daha sübut edir ki, əməkdaşlıq əlaqələri möhkəmləndirilməlidir. Bu istiqamətdə birlikdə çalışmalıyıq”.

Forumda “Müxtəlifliyin idarə olunması: çoxsəviyyəli və çoxtərəfli əməkdaşlıq”, “Sülh naminə gənclər: şiddətli ekstremizmə qarşı əks qüvvənin formalaşdırılması” və “Miqrasiya, yerdəyişmə və insan təhlükəsizliyi” mövzularında üç əsas plenar sessiyanın keçirildiyini bildirən Mayk Hardi dünyada sülh və bərabərliyin, qarşılıqlı etimadın və anlaşmanın əldə olunmasında bu tədbirin böyük əhəmiyyət kəsb etdiyini söyləyib.

Bağlanış mərasimində çıxış edən Mədəniyyət naziri Əbülfəs Qarayev bütün iştirakçılara və tərəfdaşlara minnətdarlığını bildirərək 2 gün ərzində mühüm mövzuların müzakirə olunduğunu bildirib. O deyib: “Birinci dəfə Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna 40 ölkə ilə başladıq. Hazırda isə bu Forumda 135 ölkə təmsil olunur. Forum müddətində çoxsaylı məruzələr dinlənilib, 20-dən çox müxtəlif tədbir, o cümlədən sessiya, dəyirmi masa və s. təşkil edilib. Habelə 30-dan çox beynəlxalq təşkilatın rəhbərləri bir otaqda əyləşərək müzakirələr aparıblar. Bütün sessiyalarda keçirdiyimiz hər məqam canlı şəkildə BMT veb-saytı vasitəsilə yayımlanıb”.

Sonra BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali nümayəndəsi Migel Anxel Moratinos, UNESCO-nun Baş direktorunun sosial və humanitar elmlər üzrə müavini Nada Al-Naşif, İSESCO-nun baş direktoru Əbdüləziz bin Osman əl-Tuveycri və BMT-nin Dünya Turizm Təşkilatının icraçı direktoru Manuel Butler Halter çıxış edərək Forumun yüksək səviyyədə təşkilinə görə Azərbaycan hökumətinə, xüsusilə də Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Qeyd edilib ki, Forumda sülh və inkişafa nail olmaq məqsədilə mədəniyyətlərarası anlaşma və mədəni müxtəliflik məsələləri, qloballaşma dövründə mədəniyyətlərin qarşılıqlı təsiri və sintezi, sürətlə dəyişməkdə olan dünyada sivilizasiyalararası əlaqələrin əhəmiyyəti və etnik münaqişələrin qarşısının alınması, turizmin inkişafı və digər məsələlərə toxunulub. Həmçinin mədəni müxtəliflik üçün ictimai dəstəyin göstərilməsinə dair maraqlı təkliflər irəli sürülüb.

Sonda Əbülfəs Qarayev Forumun işində yaxından iştirak edən hər kəsə minnətdarlığını bildirib.

**AZƏRTAC**

# V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu konsertlə başa çatıb





**Mayın 2-3-də Bakıda V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu keçirilib.**

AZƏRTAC xəbər verir ki, Forum çərçivəsində Beynəlxalq Muğam Mərkəzində gənc xanəndə Rəvanə Qurbanovanın konserti olub. Müğənninin ifasında xalq mahnıları və muğamlar səslənib.

Konsert tamaşaçılar tərəfindən böyük maraqla qarşılanıb.

**AZƏRTAC**

# BMT-nin xəbər portalı V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundan yazır

**BMT-nin “un.orgnews” fransız dilli xəbər portalında V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna dair “Mədəniyyətlərarası dialoq münaqişələrin və şiddətli ekstremizmin qarşısının alınmasında güclü vasitədir” adlı məqalə dərc olunub.**

AZƏRTAC xəbər verir ki, məqalədə Forumun “Ayrı-seçkilik, qeyri-bərabərlik və zorakı münaqişəyə qarşı fəaliyyət naminə dialoq quraq” mövzusunda təşkil edildiyi bildirilib.

Yazıda “Bakı Prosesi”nin nailiyyətlərindən bəhs olunur. Həmçinin Forumdakı çıxışlara da geniş yer verilir. Bildirilir ki, bu gün dünyada dindən sui-istifadə olunur. Bu cür mənfi təzahürlərə qarşı konkret mübarizə istiqamətlərinin müəyyənləşdirilməsinin vacibliyi vurğulanır.

**AZƏRTAC**

TƏKRAR

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin tabeliyində

“MİDA” Məhdud Məsuliyyətli Cəmiyyəti

Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsinin qərb hissəsində 20 ha ərazidə inşa olunan yaşayış kompleksinin sayğaclaşdırılması ilə əlaqədar satınalmalar üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 3 lot üzrə keçirilir:

Lot-1 - Elektrik enerjisi sayğaclarının alınıb quraşdırılması və istismara verilməsi;

Lot-2 - Su sayğaclarının alınıb quraşdırılması və istismara verilməsi;

Lot -3 - Qaz sayğaclarının alınıb quraşdırılması və istismara verilməsi.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, iddiaçının ixtisas göstəricilərinin aidiyyəti işlər üzrə uyğunluğu, kadr imkanları, iş təcrübəsi və müqavilənin ən qısa müddət ərzində icrası.

Tender predmeti haqqında ətraflı məlumat tenderin əsas şərtlər toplusunda verilir. Maraqlananlar tenderin əsas şərtlər toplusunu (Azərbaycan dilində hazırlanmış) tenderdə iştirak etmək üçün yazılı müraciət edib qeydiyyata alındıqdan sonra hər bir lot üzrə aşağıdakı hesaba 500 (beş yüz) manat iştirak haqqı ödəməklə Bakı şəhəri, Cəlil Məmmədquluzadə küçəsi, 85Z ünvanından (əlaqələndirici şəxs: Vəliyev Zahid Musa oğlu, telefon: (+99412) 594-54-01, daxili 238) ala bilərlər.

VÖEN: 1701953921
“Kapital Bank” ASC-nin Mərkəz filialı
Filialın kodu: 200026
VÖEN: 9900003611
SWİFT kod: AİİBAZ2X
M/h: AZ37NABZ01350100000000001944
“MİDA” MMC
Hesab: AZ18AIIB38030019440029636102

Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (rəsmi blankda və möhürlə təsdiq olunmuş qaydada) təqdim etməlidirlər.

1. Tenderdə iştirak etmək üçün ərizə;
2. İştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;
3. Tender təklifi (tender təklifləri zərflərinin açıldığı gündən sonra azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);
4. Tender təklifinin ümumi qiymətinin 1 (bir) faizi məbləğində tender təklifinin təminatı - bank zəmanəti (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən azı 30 (otuz) bank günü çox olmalıdır);
5. Malgöndərənlər (podratçılar) haqqında tələb olunan sənədlər. Bu sənədlərə aşağıdakılar daxildir:

- Malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- İddiaçının analoji işlər üzrə yerinə yetirdiyi və ya icrasını davam etdirdiyi müqavilələrin təsdiq olunmuş surəti;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanından arayış;
- Son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- Son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- İxtisas göstəricilərinə dair məlumatlar (bu məlumatlar tenderin əsas şərtlər toplusunda tələb olunan sənədlərdə və formalarda təqdim olunmalıdır);
- Digər sənədlər: xarici şirkətlər iştirak etdikdə onların Azərbaycanda nümayəndəliyinin olmasını təsdiq edən sənədlər.

İddiaçılar 1, 2 və 5-ci bəndlərdə qeyd olunan sənədləri 2019-cu il 24 may tarixinə kimi Tender komissiyasına təqdim etməlidirlər. Həmin sənədlərdən hər hansı birini təqdim etməyən və ya ixtisas göstəricilərinə dair tələblərə uyğun olmayan iddiaçının tender təklifi qəbul olunmur.

İddiaçılar öz tender təkliflərini (imzalanmış, möhürlənmiş, ikiqat bağlama zərfdə) 2019-cu il 03 iyun saat 17:00-a qədər yuxarıda qeyd olunan ünvana təqdim etməlidirlər. Göstərilən tarixdən gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır. Tender təklifi zərfləri 2019-cu il 04 iyun tarixində saat 15:00-da “MİDA” MMC-də açılacaqdır.

Tender Komissiyası.

# ADMİU-da akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimatı olub

**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində (ADMİU) Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının təqdimatı keçirilib.**

ADMİU-dan AZƏRTAC-a bildirilib ki, tədbirdə çıxış edən rektor, professor Ceyran Mahmudova tariximizin xanlıqlar dövrünə həsr olunan kitabın Azərbaycan humanitar elmlər sahəsi üçün əhəmiyyətindən danışıb. Bildirib ki, akademik Ramiz Mehdiyevin bu kitabı Azərbaycan tarixində olan boşluqların aradan qaldırılmasına xidmət edir.



Ceyran Mahmudova deyib: "Artıq iki aya yaxındır ki, hörmətli akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabı işıq üzü görüb. Akademik Ramiz Mehdiyev ölkəmizin tarixi ilə bağlı bir sıra dəyərli kitabların müəllifidir. Onun bir çox kitabları Azərbaycan tarixinin istər qədim, istərsə də müasir dövrlərini araşdıran dəyərli qaynaqlardır. "Azərbaycanlılara qarşı soyqırım gerçəklikləri", "Azərbaycan: tarixi irs və müstəqillik fəlsəfəsi", "XXI əsrdə milli dövlətçilik: Demokratik inkişaf və müxalifət", "Tarixi idrakın elmiliyi problemlərinə dair", "Şah İsmayıl Səfəvi: hökmdarın və döyüşçünün portreti" - bu kitabların hər biri Azərbaycan tarixinin dünənini və bu gününü əhatə edən dəyərli araşdırmalardır. Xanlıqlar dövrünün siyasi təhlilinə və tarixi dəyərləndirilməsinə həsr olunan, 22 orijinal sənəddən və bu sənədlərin geniş təhlilindən ibarət "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" adlı sanballı tədqiqat işində müəllif xanlıqlar dövrünün Azərbaycan tarixindəki rolunu, dövrün obyektiv siyasi mənzərəsini canlandırır. Əslində, xanlıqlar dövründən yazanda akademik Ramiz Mehdiyev ölkəmizin bu günü ilə bağlı da bizə bir çox işarələr verir. Yarım əsrlik dövrü əhatə edən xanlıqlar dövrü Azərbaycanın parçalanması, xanlıqlara bölünməsi ilə bağlı idi. Xanlıqlar dövrü vahid Azərbaycanın yaranmasına əngəl olub. Xanlıqlar arasındakı daxili çəkişmələrdə, müharibələrdə soydaşlarımızın qanı tökülüb. Ötən əsrin 90-cı illərinin əvvəllərində də biz qardaş qırğınının astanasında idik. ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətinin başında durmasaydı, xalqımızın başına hansı müsibətlərin gələcəyini təsəvvür etmək belə dəhşətlidir. Biz o zaman çox çaşqın vəziyyətdə idik. Bilmirdik, gələcəyimiz necə olacaq. Belə bir zamanda ulu öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi öz əlinə götürməsi bizim üçün böyük xoşbəxtlik oldu. Biz bu vəziyyətdən çıxa-çıxa təhlükəsiz, sabit həyat yaşamağa başladıq. Azərbaycan qısa zaman ərzində öz siyasi, iqtisadi gücünü artıraraq, regionun lider dövlətinə çevrildi. Kitabda xanlıqlar dövrü sənədlərlə geniş şəkildə şərh olunur. Biz görürük ki, xanlıqlar dövründə Azərbaycana qarşı yürüdülən "parçala və hökm sür" siyasətini 90-cı illərdə də bizə qarşı tətbiq etmək istəyirdilər. Mənə elə gəlir ki, akademik Ramiz Mehdiyevin bu mövzuya müraciət etməsi heç də təsadüfi deyil. Çünki tarixi unutmaq olmaz. İnsan öz xalqının taleyini, onun hansı məşəqqətlərdən keçdiyini, hansı bəlalarla üz-üzə olduğunu unutmamalıdır. Akademik Ramiz Mehdiyev yazır: "Bütövlükdə ictimaiyyətimiz, xüsusilə də alimlərimiz özləri üçün birdəfəlik yəqin etməlidirlər ki, milli şüurun təşəkkülü prosesi, milli məfkurənin, düşüncənin yaranması kortəbii şəkildə baş vermir. Milli şüurun təşəkkülü dövlət quruculuğu qədər mürəkkəb və çoxmərhələli bir prosesdir. Onun düzgün istiqamətdə inkişaf etməsi, dayanıqlı və praktik cəhətdən faydalı olması üçün dərindən düşünülmüş, bütün zəruri detalların nəzərə alındığı çevik, mütəhərrik strategiya işlənib hazırlanmalıdır". Bu kitabı olduqca faydalı, vaxtında işlənmiş dəyərli bir əsər kimi qiymətləndirirəm. Müxtəlif təhsil ocaqlarında kitabın təqdimat və müzakirələri həyata keçirilib və onlar bu gün də davam edir".



ADMİU-nun elm və yaradıcılıq işləri üzrə prorektoru, professor Məryəm Əlizadə akademik Ramiz Mehdiyevin həm siyasi, həm də elmi fəaliyyətinin əhəmiyyətini vurğulayıb və zəngin təcrübəyə və hərtərəfli elmi düşüncəyə malik alimin qələmindən çıxmış kitabın böyük elmi əhəmiyyətə malik olduğunu vurğulayıb: "Mənim üçün əlamətdar olan bir məqam da var ki, bu kitabda Azərbaycan mədəniyyətindən də söz açılır. Kitabda xanlıqlar dövrünün həm mənfi tərəfləri, həm də müsbət cəhətləri işıqlandırılır. Bu kitab bizim sahə üçün mədəniyyət sahəsinin öyrənilməsi baxımından da böyük əhəmiyyət kəsb edir".

Universitetin beynəlxalq əlaqələr və tərbiyə işləri üzrə prorektoru, professor Gülşən Kəngərli akademik Ramiz Mehdiyevin qələmə aldığı digər elmi əsərlər kimi, bu kitabın da geniş elmi ictimaiyyət tərəfindən böyük maraqla qarşılandığını vurğulayıb: "Elmi əsərin qiymətini müəyyənləşdirən onun yalnız hansı sualları qaldırması, hansı suallara cavab verməsi deyil, həm də hansı problemlərin həll olunması haqqında proqnoz verməsidir. Əsərin müqəddimə hissəsində qaldırılan məsələlər Azərbaycan tarixşünaslığının gələcək inkişafı üçün proqram səciyyəsi daşıyır. Hörmətli akademik kitabında Azərbaycan tarixi üçün son dərəcə əhəmiyyətli bir məsələni gündəmə gətirir və tarixi problemlərin işığında bugünkü problemləri çözməyə çağırır. Müəllif məsələyə həm tarixçi, həm filosof, həm də müdrik və təcrübəli bir dövlət xadimi kimi yanaşır. Hesab edirəm ki, bu əsər çox qiymətli bir əsərdir və kitabın müəyyən hissəsinin dərsliklərə salınması gənclər üçün də çox vacibdir".

Tədbirdə rektorun humanitar məsələlər üzrə müşaviri professor Aqşin Babayev, kino və televiziya fakültəsinin dekanı, dosent Mübariz Məmmədli, kulturologiya üzrə fəlsəfə doktoru, dosent Xaləddin Sofiyev, fəlsəfə elmləri doktoru, professor Əlikram Hümbətov, Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, dosent Fəridə Səfiyeva, ədəbi yaradıcılıq və ekran dramaturgiyası kafedrasının müdiri, Əməkdar incəsənət xadimi, dosent Əli Əmirli çıxış edərək akademik Ramiz Mehdiyevin "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının məziyyətlərindən danışıblar.

Çıxışlarda "Tariximizin xanlıqlar dövrünün siyasi irsi sənədlər işığında" kitabının tarixçilər, mənbəşünaslar, ədəbiyyatşünaslar üçün mühüm elmi mənbə kimi böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb. Kitabın fənn proqramlarına, təqvim planlarına daxil edilməsi təklifi irəli sürülüb.

**AZƏRTAC**

# ADA Universitetində "Hacı Zeynalabdin Tağıyev" mükafatının təqdim edilməsi mərasimi olub






**ADA Universitetində "Hacı Zeynalabdin Tağıyev" mükafatının təqdim edilməsi mərasimi keçirilib.**

AZƏRTAC xəbər verir ki, tədbir sosial məsuliyyət sərgisi, xeyriyyə satış sərgisi və bayram konserti formatında ADA Universitetinin tədris mərkəzində açıq havada keçirilib.

Məşhur xeyriyyəçinin adını daşıyan mükafat tələbə icmasının "ən sosial məsuliyyətli vətəndaşları"na verilir. Bu, universitetin sevilən ənənələrindən biridir. Tələbələr seçdikləri mövzu üzrə tədris ili boyunca qrup halında işləyərək layihə formalaşdırır və nəticələr əldə edilməsinə çalışırlar.




Mükafatlandırma mərasimində Hacı Zeynalabdin Tağıyevin nəticəsi Nazim Abdullayev xüsusi qonaq qismində iştirak edib. O, AZƏRTAC-a müsahibəsində deyib: "Mən çox sevinirəm ki, gənclərimiz belə layihələr həyata keçirməkdə maraqlıdırlar. Hacı Zeynalabdin Tağıyevin adını yaşatdığına, onu gənclər arasında təbliğ etdiyinə görə ADA Universitetinin rəhbərliyinə ailəmiz adından təşəkkürümü bildirirəm".

On yeddi tələbə layihəsi arasından qaliblər mükafatlandırılıb. Birinci yerə iki layihə - "Çölçü" və "Humanity" layiq görülüb. "Çölçü" tələbə layihəsinin məqsədi Azərbaycan gəncləri arasında təbiət qoynunda keçirilən qədim çöl idman növlərimizə həvəs yaratmaqdır. "Humanity" layihəsi isə tələbələrə davranışlarında və ətrafdakılara münasibətdə humanist dəyərləri üstün tutmağı aşılayır.

Qaliblərin mükafatlarını ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev və Nazim Abdullayev təqdim ediblər. Hər iki layihəyə görə 1600 manat məbləğində pul mükafatı təqdim olunub.

"Çölçü" layihəsinin komanda rəhbəri Qoşqar Qədimbəyli AZƏRTAC-a açıqlamasında bildirib: "Çox sevinirəm ki, komandamızın layihəsi qaliblər sırasındadır. Komandamız adından universitet rəhbərliyinə xüsusi təşəkkürümü bildirirəm ki, sosial layihələrimizi təqdim etmək üçün bizə şərait yaradır".

"Biz il ərzində layihəmizi həyata keçirdik, çalışdıq ki, həm tələbələr, həm də ətrafdakı insanlar arasında humanistliyi təbliğ edək. Layihəmizin qalib olacağına inanırdım, çox sevinirəm. Bütün qalib layihələri təbrik edirəm". Bu fikirləri isə "Humanity" layihəsinin yaradıcılarından biri olan Səkinə Mehraliyeva deyib.

İkinci yeri "Qida bankı platforması" tutub. Məqsədi imkansız ailələrin ehtiyaclarının ödənilməsi üçün ərzaq toplamaq olan bu layihəyə görə 1500 manat məbləğində mükafatı ADA Universitetinin icraçı prorektoru Fariz İsmayılzadə və tələbə və məzun məsələləri üzrə prorektor müavini Gülnur İsmayıl təqdim ediblər.

"Kitabalogiya" layihəsi isə üçüncü yerə layiq görülüb. Layihənin məqsədi ictimai nəqliyyatda kitab oxumaq mədəniyyətinin artırılmasıdır. ADA Universitetinin tədris işləri üzrə prorektoru Vəfa Kazdal və Azərbaycanın Əməkdar artisti Bəhram Bağırzadə 1000 manat məbləğində mükafatı layihəni hazırlayan komandaya təqdim ediblər.

Bu il əvvəlki illərdən fərqli olaraq "Hacı Zeynalabdin Tağıyev" mükafatında xüsusi 4-cü yer ayrılıb. Bu yerə tələbələrin "Pay qutusu" layihəsi layiq görülüb. Layihəni hazırlayan komandanın üzvlərinə Hacı Zeynalabdin Tağıyevin nəvəsi Nazim Abdullayev xüsusi hədiyyə təqdim edib.

**AZƏRTAC**

# Braziliya Milli Konqresinin Deputatlar Palatasının sədri Azərbaycana rəsmi səfərə gəlib

**Mayın 3-də Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyəti Azərbaycan Respublikasına rəsmi səfərə gəlib.**

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda qonağı Azərbaycan Respublikası Milli Məclisi sədrinin birinci müavini Ziyafət Əsgərov və digər rəsmi şəxslər qarşılayıblar.

**AZƏRTAC**



# "İDEF-2019" sərgisində Azərbaycanın ixracyönümlü hərbi təyinatlı məhsulları nümayiş etdirilib

**Aprelin 30-da İstanbulda işə başlayan "İDEF-2019" XIV beynəlxalq müdafiə sənayesi sərgisi başa çatıb.**

Müdafiə Sənayesi Nazirliyindən (MSN) AZƏRTAC-a bildiriblər ki, Türkiyə Prezidentinin himayədarlığı və Milli Müdafiə Nazirliyinin təşkilatçılığı ilə 1993-cü ildən İstanbulda iki ildən bir keçirilən "İDEF" beynəlxalq müdafiə sənayesi sərgisi müdafiə, təhlükəsizlik, dənizçilik, aviasiya və kosmos sənayesi sahələrində əhəmiyyətli beynəlxalq təqdimat, marketinq və iş birliyi platforması olmaqla yanaşı, iştirakçı firma və heyət sayı etibarilə dünyanın ən böyük hərbi sənaye sərgilərindən birinə çevrilib. Bu sərgidə dünyanın aparıcı müdafiə sənayesi şirkətləri iştirak edərək məhsul və xidmətlərini təqdim edirlər.





MSN birinci dəfə "İDEF" sərgisinə 2009-cu ildə qatılıb və bu sərgi nazirliyin təmsil olunduğu ilk beynəlxalq sərgi olub. Həmin sərgidə 10 kvadratmetrlik bir guşə ilə təmsil olunan nazirlik "İDEF-2019" sərgisində müxtəlif çeşidli məhsullarını möhtəşəm milli pavilyonda nümayiş etdirib.

"İDEF-2019" sərgisində 70 ölkədən 1061 şirkət və 500-dən çox rəsmi nümayəndə heyəti, o cümlədən MSN-nin nazir müavini Yəhya Musayevin rəhbərliyi ilə geniş tərkibli nümayəndə heyəti iştirak edib. Sərgidə milli pavilyonla təmsil olunan MSN əsasən ixracyönümlü məhsullarını nümayiş etdirib. Snayper tüfəngləri, avtomatlar, hücum pulemyotları, qumbaraatanlar, minaatanlar, pirotexniki vasitələr, optik sistemlər, döyüş maşınları, pilotsuz uçuş aparatları, müxtəlif çaplı döyüş sursatları və digər hərbi təyinatlı məhsullar ziyarətçilər tərəfindən maraqla qarşılanıb.

MSN-nin müəssisələrində yaradılan "QFAB-250 LG" aviasiya bombasının inert nümunəsi xaricdə keçirilən sərgidə - "İDEF-2019" sərgisində ilk dəfə nümayiş etdirilib. NATO standartlarına uyğun yaradılan "QFAB-250 LG" aviasiya bombaları 12 min metrədək məsafədən hədəfi maksimum 10 metr sapma ilə vurmaq imkanı verir. Bu məmulat daxili tələbat və eyni zamanda, ixrac üçün nəzərdə tutulur.

Sərgi çərçivəsində nazir müavini Yəhya Musayevin Türkiyənin Müdafiə Sənayesi Komitəsinin sədri İsmayıl Dəmir, Cibutinin müdafiə naziri Əli Həsən Bahdon, Ukraynanın "Ukroboronprom" şirkətinin baş direktoru Pavlo Bukin, Pakistanın "GİDS" şirkətinin icraçı direktoru Tariq Cavaid və sərgidə iştirak edən bir sıra ölkələrin nümayəndə heyətlərinin rəhbərləri, eləcə də Qətərin, Bəhreynin nümayəndələri ilə görüşləri keçirilib. Görüşlərdə hərbi-texniki sahədə mövcud əməkdaşlıqların inkişaf etdirilməsi, yeni birgə layihələrin reallaşdırılması istiqamətində müzakirələr aparılıb və ümumi razılıqlar əldə edilib.

MSN-nin stendi sərgiyə ev sahibliyi edən qardaş ölkə Türkiyənin milli müdafiə naziri Hülusi Akar, Müdafiə Sənayesi Komitəsinin sədri İsmayıl Dəmir və eləcə də tədbirdə iştirak edən ölkələrin nümayəndə heyətlərinin rəhbərləri tərəfindən ziyarət edilib və nümayiş etdirilən məmulatlar böyük maraqla izlənilib. "İDEF-2019" sərgisinə qatılan Azərbaycanın müdafiə naziri və digər güc qurumlarının nümayəndələri də milli pavilyonumuzda olub və görüşlər keçiriblər.

Müdafiə naziri, general-polkovnik Zakir Həsənovla görüş zamanı nazir müavini Yəhya Musayev MSN adından Azərbaycan Ordusuna 50 revolver tipli əl qumbaraatanı hədiyyə edildiyini bildirib. Qumbaraatanların nümunəsi general-polkovnik Zakir Həsənova təqdim olunub.

Nazir müavini Yəhya Musayev və nazirliyin nümayəndələri sərgidə iştirak edən ölkələrin stendlərini də ziyarət edərək hərbi sənaye sahəsində əldə olunan yeniliklərlə tanış olublar. Türkiyənin "ASELSAN" şirkətinin stendinə baxış zamanı MSN ilə bu şirkət arasında əməkdaşlığın inkişafına dair müzakirələr aparılıb. Əldə olunan razılığa əsasən nazirliyin Elmi-Tədqiqat İnstitutu ilə "ASELSAN" şirkəti arasında protokol imzalanıb.

Sərgi çərçivəsində 2020-ci ildə Azərbaycanda keçiriləcək "ADEX-2020" IV beynəlxalq müdafiə sərgisi ilə bağlı nazirliyin nümayəndə heyəti tərəfindən ziyarətçilərə ətraflı məlumat verilib.

**AZƏRTAC**

# Braziliya Azərbaycanla enerji sahəsində əməkdaşlıqda maraqlıdır



**Azərbaycan ilə Braziliyanın enerji əməkdaşlığı müzakirə olunub.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, nazirlikdə Braziliya Federativ Respublikası Milli Konqresinin Deputatlar Palatasının sədri Rodriqo Mayanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirilib. Görüşdə iki ölkə arasında enerji əməkdaşlığının perspektivlərinə dair müzakirələr aparılıb.

R.Maya Braziliyanın karbohidrogen ehtiyatları, yeni yataqların kəşfi hesabına hasilatda gözlənilən artım, təbii qaz sahəsində həyata keçirilən islahatlar, eləcə də bərpaolunan enerjidən istifadə barədə məlumatları diqqətə çatdırıb. Bildirib ki, Braziliya Azərbaycanla enerji sahəsində əməkdaşlıqda maraqlıdır. Bu məqsədlə, iki ölkənin enerji sahəsində fəaliyyət göstərən müvafiq qurumları və neft-qaz şirkətləri arasında əlaqələrin inkişafına, "Petrobras"la SOCAR-ın əməkdaşlıq imkanlarının nəzərdən keçirilməsinə ehtiyac var.

Energetika naziri Pərviz Şahbazov Azərbaycan ilə Braziliya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini və enerji əməkdaşlığı üçün imkanların olduğunu deyib. Nazir qədim neft diyarı olan Azərbaycanın keçdiyi inkişaf yolu, neft-qaz sənayesinin inkişaf mərhələləri və qlobal enerji təhlükəsizliyinin təminatı prosesində rolundan danışıb.

SOCAR tərəfindən bu ölkə istiqamətində xam neftin, eləcə də Braziliya mənşəli neft və neft məhsullarının dünya bazarına təchiz edildiyini deyən nazir bildirib ki, neft-qaz şirkətləri arasında əməkdaşlığın genişləndirilməsi üçün Energetika Nazirliyi lazımi dəstəyi verməyə hazırdır.

P.Şahbazov, eyni zamanda, iki ölkə arasında əməkdaşlıq üçün mümkün istiqamətlərdən biri kimi bərpaolunan enerji sahəsini qeyd edib: "Hazırda Azərbaycanda bərpaolunan enerji mənbələrindən istifadə üzrə yeni mərhələ başlanıb. Bu sahədə qanun və təşviqedici mexanizmlər hazırlanır. İndi əməkdaşlıq üçün münasib məqamdır və Braziliya şirkətlərini bərpaolunan enerji sahəsində iştiraka dəvət edirik".

Söhbət zamanı ölkələr arasında əlaqələrin möhkəmlənməsinə xidmət edən digər istiqamətlər üzrə də imkanlar nəzərdən keçirilib.

**AZƏRTAC**

